

Biz bazar iqtisadiyyatını vergi yolu ilə tənzimləməliyik.

Heydər ƏLİYEV

HƏR BİR VƏTƏNDAŞ VERGİ ÖDƏMƏKDƏN ŞƏRƏF DUYMALIDIR

# Vergilər

№ 19 (861) ■ 24 may 2017 www.vergiler.az Qiyməti: 60 qəp.

# Bütün İslam dünyasını bir araya gətirən möhtəşəm idman bayramı

Azərbaycan daha bir mötəbər beynəlxalq idman tədbirinə - «Bakı-2017» IV İslam Həmrəyliyi Oyunlarına yüksək səviyyədə ev sahibliyi edərək tarix yazdı. On gün ərzində İslam dünyasının idman nəbzi Bakıda döyündü. İslamiadanın yarışları, sözün həqiqi mənasında, əsl idman və həmrəylik bayramına çevrildi, maraqlı və parlaq qələbələrlə yadda qaldı. «Bakı-2017»də iştirak edən ölkələr arasında Azərbaycan 75 qızıl medalla birinci oldu. İdman arenalarında Azərbaycanın dövlət himni 75 dəfə səsləndi, dövlət bayrağı 162 dəfə qaldırıldı.



Mayın 22-də Bakı Olimpiya Stadionunda idman həvəskarlarına bir çox unudulmaz, sevinc dolu anlar bəxş edən Oyunların təntənəli bağlanış mərasimi keçirilib. Tamaşaçılar Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevi, birinci xanım, «Bakı-2017» Təşkilat Komitəsinin sədri Mehriban Əliyevanı, İslam Həmrəyliyi İdman Federasiyasının baş katibi Faisal Abdulaziz Al-Nasseri hərarətlə salamlayıblar.



Bağlanış mərasiminin bədii hissəsindən sonra idmançıların paradı başlayıb. İslam Həmrəyliyi Oyunlarında iştirak edən atletlər öz ölkələrinin milli bayraqları ilə stadiona daxil olublar. Paradı ev sahibi olan Azərbaycan atletləri tamamlayıb.

Mərasimdə çıxış edən Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, «Bakı-2017» Təşkilat Komitəsinin sədri Mehriban xanım Əliyeva bildirib ki, Azərbaycan növbəti tarixi qələbəyə imza atıb, IV İslam Həmrəyliyi Oyunlarının ölkəmizdə keçirilməsi bütün İslam dünyasının Azərbaycana və Azərbaycan xalqına olan hörmət və dəstəyinin təzahürüdür. «Bu günlər ərzində Azərbaycan xalqı qonaqpərvərliyini və mehribanlığını bir daha nümayiş etdirdi. Azərbaycan göstərdi ki, o, böyük idman dövlətidir. Milli komandamız ümumi hesabda birinci yeri qazandı. Bu tarixi qələbə ilə fəxr edir və Azərbaycan xalqını ürəkdən təbrik edirəm. Bundan da böyük qələbə bu günlər ərzində nail olduğumuz İslam aləminin həmrəyliyi və birliyinin təntənəsidir. Gəlin, hamımız bu birliyi qoruyaq, İslam həmrəyliyini gücləndirək. Qoy, Allah bütün müsəlmanları qorusun!».

Mehriban xanım Əliyeva bildirib ki, Azərbaycanın milli komandası 162 medal, o cümlədən 75 qızıl medal qazanaraq, medallar cədvəlində birinci yer tutaraq, bizi bir daha fərəhləndirdi: «Azərbaycan idmançıları, sizin fədakarlığınız və ustalığınız həmvətənlərimizi ilhamlandırmaqda davam edir və gələcək nəslə ən parlaq nümunə kimi xidmət edəcək».

«Bakı-2017» Təşkilat Komitəsinin sədri qeyd edib ki, bu Oyunlar və bir çox digər mühüm beynəlxalq idman, humanitar və siyasi tədbirlər Bakının açıqlıq və tolerantlıq mərkəzi kimi nüfuzunu daha da möhkəmləndirib: «Paytaxtımız İslam idman ictimaiyyətini açıq qəlblə qəbul etdi və bu Oyunların uğurlu olması bütün Azərbaycanın fədakarlığına və qəhrəmanlığına işarədir. Bütün dünyadan gəlmiş qonaqlarımız özünün qədim irsinə və ənənələrinə sadiq olan, gələcəyinə qətiyyətlə baxan ölkənin - Azərbaycanın zəngin mədəniyyəti və məşhur qonaqpərvərliyi ilə tanış oldular».

Azərbaycanın beynəlxalq idman oyunlarına ev sahibliyini davam etdirəcəyini diqqətə çatdıran Mehriban Əliyeva bildirib ki, biz dünyanı Bakıda salamlamaqda davam edəcəyik: «Bu yay Formula-1 Azərbaycan Qran-Pri turniri, sentyabrda qadınlar arasında voleybol üzrə Avropa çempionatı keçiriləcək və 2020-ci ildə burada, Bakı Olimpiya Stadionunda futbol üzrə Avropa çempionatının oyunları baş tutacaq».

İslam Həmrəyliyi İdman Federasiyasının baş katibi Faisal Abdulaziz Al-Nasser çıxış edərək İslam Həmrəyliyi Oyunlarını yüksək səviyyədə təşkil etdiyinə görə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə, Birinci vitse-prezident, «Bakı-2017»nin Təşkilat Komitəsinin sədri xanım Mehriban Əliyevaya, Oyunlarda iştirak edən bütün idmançılara, könüllülərə, ümumilikdə Azərbaycan xalqına təşəkkürünü çatdırıb.

Sonra monitorlarda 2021-ci ildə V İslam Həmrəyliyi Oyunlarına ev sahibliyi edəcək İstanbul şəhərindən görüntülər, idman qurğularının əks olunduğu videoçarx nümayiş etdirilib. Xüsusi Dövlət Mühafizə Xidmətinin Milli Qvardiyasının hərbçiləri İslam Həmrəyliyi İdman Federasiyasının bayrağını endiriblər, federasiyanın baş katibi Faisal Abdulaziz Al-Nasser bayrağı Türkiyə Respublikasının gənclər və idman nazirinin müavini, «İstanbul-2021» İslam Həmrəyliyi Oyunlarının nümayəndəsi Kamuran Özdənə təqdim edib.

IV İslam Həmrəyliyi Oyunlarının bağlanış mərasimi «Birlik» adlı konsertlə davam etdirilib, Bakı Olimpiya Stadionunun üzərində möhtəşəm atəşfəşanlıqla başa çatıb.

# Azərbaycanda aparılan düşünülmüş siyasət bütün sahələrdə öz bəhrəsini verir

Mayın 23-də «Bakı-2017» IV İslam Həmrəyliyi Oyunlarında qalib gəlmiş idmançılarımız, onların məşqçiləri və Azərbaycanın idman ictimaiyyətinin nümayəndələri ilə görüş keçirilib. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım, «Bakı-2017» IV İslam Həmrəyliyi Oyunları Təşkilat Komitəsinin sədri Mehriban Əliyeva və ailə üzvləri görüşdə iştirak ediblər.

Tədbirdə çıxış edən dövlətimizin başçısı Oyunlarda qazanılan parlaq qələbə münasibətilə bütün idmançıları, məşqçiləri, idman mütəxəssislərini təbrik edib, hər birinə yeni uğurlar arzulayıb: «Bizim idmançılar bu Oyunlarda 75 qızıl, 50 gümüş, 37 bürünc medal qazanaraq komanda hesabında birinci oldular. Bu, böyük tarixi qələbədir. Nəzərə alsaq ki, bu Oyunlarda 50-dən çox ölkə iştirak edirdi və ölkələr ən peşəkar idmançılarını bu Oyunlara göndərmişdilər, əlbəttə, bu qələbənin əhəmiyyəti artır. Biz hamımız yaxşı bilirik ki, bu heç də təsadüfi qələbə deyil. Çünki idmançılarımız müxtəlif beynəlxalq yarışlarda, dünya, Avropa çempionatlarında, Olimpiya Oyunlarında artıq öz güclərini göstərmişlər və Azərbaycan dünya miqyasında güclü idman dövləti kimi tanınır».

Prezident İlham Əliyev vurğulayıb ki, Azərbaycanda aparılan düşünülmüş siyasət idman sahəsində də öz bəhrəsini verməkdədir: «Bu gün Azərbaycanda idman ictimai proseslərin inkişafında xüsusi yer tutur. İdmançılara cəmiyyətdə çox xoş münasibət var. Onlara olan hörmət göz qabağındadır və hər bir vətənpərvər Azərbaycan vətəndaşı idmançılarımızın uğurlarını alqışlayır, bununla fəxr edir. Hər dəfə bizim bayrağımız qaldırılanda, dövlət himnimiz səsləndə hər bir vətənpərvər insan qürur hissi keçirir. Bu 10 gün ərzində idmançılarımız xalqımıza qələbə sevinci bəxş etdilər. Bu 10 gün ərzində Azərbaycan cəmiyyəti bir daha birlik, həmrəylik, vətənpərvərlik göstərdi, tribunalarda yarışları izləyən tamaşaçılar böyük coşqu, böyük sevgi ilə sizin qələbələrinizi alqışlayırdılar, sizinlə bərabər buna sevinirdilər, bu qələbə sevincini sizinlə bölüşürdülər».

Dövlətimizin başçısı Bu mötəbər idman tədbirini ölkəmiz üçün tarixi hadisə adlandırıb: «Şadam ki, bu qələbəni şərtləndirən, qələbəyə aparan bütün qurumlar çox yaxşı işlədilər. Həm əvvəlki illərdə, həm Oyunlar ərəfəsində Mili Olimpiya Komitəsi, Gənclər və İdman Nazirliyi, federasiyalar, idman cəmiyyətləri, klublar, məşqçi korpusu, idman mütəxəssisləri, əlbəttə, idmançılar bir komanda, bir ailə kimi bir amala xidmət edərək, bu qələbəni mümkün etdilər. Bəzi ölkələrdən fərqli olaraq Azərbaycanda bütün idman qurumları çox sıx əlaqədə işləyirlər və hesab edirəm ki, uğurlarımızın təməlində bu amil dayanır. İdmançılar üçün isə biz bütün şəraiti yaratmışıq. Bölgələrdə 50-yə yaxın müasir Olimpiya İdman Kompleksi, Bakı şəhərində isə istənilən beynəlxalq yarışı keçirmək üçün ən müasir və gözəl idman obyektləri fəaliyyət göstərir.

Oyunların keçirilməsində Təşkilat Komitəsinin rolunu xüsusi qeyd etmək istəyirəm. Təşkilat Komitəsi Mehriban Əliyevanın rəhbərliyi ilə çox böyük iş görüb, bütün hazırlıq prosesi diqqət mərkəzində idi. Təşkilat Komitəsi ən xırda məsələyə qədər bütün lazımi tədbirləri görüb ki, həm idmançılar, həm də qonaqlar üçün yaxşı şərait yaradılsın. Ölkəmizə minlərlə xarici qonaq gəlmişdi. Mən Təşkilat Komitəsinin işini çox yüksək qiymətləndirirəm və bu, artıq təbii bir haldır. Çünki Mehribanın rəhbərliyi ilə üçüncü beynəlxalq mötəbər yarışma keçirilir - 2012-ci ildə «Eurovision» mahnı yarışması, 2015-ci ildə Avropa Oyunları, - o, birinci Oyunlar idi, Oyunların standartları yox idi və hazırlıq üçün bizim cəmi iki ilimiz var idi, - və bu dəfə İslam Həmrəyliyi Oyunları ən yüksək səviyyədə keçirilmişdir. Əlbəttə, bu, onu göstərir ki, Təşkilat Komitəsi öz vəzifə borcunu ləyaqətlə, şərəflə icra edib. Mən Təşkilat Komitəsinin bütün üzvlərinə minnətdarlığımı bildirmək istəyirəm».

Azərbaycan Prezidenti bildirib ki, bu Oyunlar, eyni zamanda, İslam həmrəyliyini gücləndirəcək: «Mən Oyunlar ərəfəsində demişdim, bizim əsas məqsədimiz ondan ibarətdir ki, müsəlman ölkələrini təmsil edən idmançılar, qonaqlar Bakıda bir yerdə olsunlar, bir-biri ilə tanış olsunlar, bir-birinin əlini sıxsınlar və dostluq, əməkdaşlıq güclənsin. Belə də oldu. Biz bunu yarışlarda gördük ki, bəzi hallarda siyasi cəhətdən bir-biri ilə o qədər də yaxın münasibətləri olmayan ölkələrin nümayəndələri bir-birini təbrik edir, bir-birinin uğuruna sevinir, bir-birinin əlini sıxırlar. Bax, bu Oyunların tarixi əhəmiyyəti məhz bundadır. Azərbaycan apardığı siyasətə idman vasitəsilə əlavə töhfə verdi».

# Ərəb-İslam-Amerika Sammiti keçirilib

*Prezident İlham Əliyev Sammitdə iştirak edib*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Ərəb-İslam-Amerika Sammitində iştirak etmək üçün Səudiyyə Ərəbistanı Krallığına səfər edib. Dövlətimizin başçısını İki Müqəddəs Ocağın Xadimi, Səudiyyə Ərəbistanının Kralı Salman bin Əbdüləziz Al Səud qarşılayıb. Sonra Səudiyyə Ərəbistanının Kralı Salman bin Əbdüləziz Al Səudun adından Sammit iştirakçılarının şərəfinə nahar verilib.

Ərəb-İslam-Amerika Sammiti «Qurani-Kərim»dən ayənin oxunması ilə başlayıb. Səudiyyə Ərəbistanının Kralı Salman bin Əbdüləziz Al Səud Sammitdə iştirak edən dövlət və hökumət başçılarını salamlayaraq İslam ölkələri arasında əlaqələrin inkişafında mühüm rol oynayacaq bu Zirvə görüşünün əhəmiyyətinə toxunub. Sammitin dünyada terrorizm və ekstremizm hallarının qarşısının alınmasına, dayanıqlı sülhün təmin edilməsinə mühüm töhfələr verəcəyinə əminliyini ifadə edən Səudiyyə Ərəbistanının Kralı bu görüşü Amerika-İslam dünyası əlaqələrində də mühüm mərhələ kimi xarakterizə edib. «İslam sülh və tolerantlıq dinidir», - deyən Səudiyyə Ərəbistanının Kralı İslamın hər zaman terrorizm və ekstremizm hallarına qarşı çıxdığını və ölkəsinin bu cür təhlükəli amillərlə mübarizədə həmişə əməkdaşlığa hazır olduğunu bildirib.

Sammitdə iştirak edən ABŞ Prezidenti Donald Tramp ilk növbədə ekstremizmlə mübarizənin vacibliyini vurğulayıb. O, bu sahədə mübarizənin müxtəlif dinlər arasında deyil, xeyirlə şər arasında getdiyini, şərə qalib gəlmək üçün səylərin birləşdirilməsinin vacibliyini qeyd edib.

Terrorizm yolunu seçənlərin həyatının boş və qısa olacağını deyən ABŞ Prezidenti bildirib ki, hər dəfə bir terrorçu günahsız insanı qətlə yetirərkən Allahın adını çəkəndə inanclı insanları təhqir etmiş olur. Donald Tramp ABŞ-ın müharibənin deyil, sülhün tərəfdarı olduğunu bildirərək ekstremizmin və terrorizmin bütün təzahürləri ilə mübarizədə hələ çox iş görülməli olduğunu, İŞİD terror qruplaşmasının maliyyələşməsinə son qoymağın vacibliyini diqqətə çatdırıb. Donald Tramp vurğulayıb ki, günahsız müsəlmanların qətlə yetirilməsinin, qadınların sıxışdırılmasının, yəhudilərin təqibinin və xristianların öldürülməsinin qarşısını almaq üçün səylər birləşdirilməlidir. ABŞ Prezidenti vurğulayıb ki, terrorizmə qarşı heç bir tədbir görülməsə qətllər, əzab və ümidsizlik daha da artacaq. Milyardlarla insanın dünya liderlərindən tədbir görmələrini gözlədiyini deyən Donald Tramp bildirib ki, terrorizmin kökünü yalnız birgə səylərlə və qətiyyətli addımlarla kəsmək mümkündür.

Sammitdə çıxış edən İslam ölkələrinin liderləri artıq qlobal xarakter alan terror hücumlarına qarşı birgə mübarizənin vacibliyini vurğulayaraq, bu sahədə bütün ölkələrin əməkdaşlığının strateji əhəmiyyət daşıdığını bildiriblər. İslam aləmindəki münaqişə ocaqlarının dünyada təhlükəsizliyi təhdid etdiyini deyən dövlət başçıları sülhün bərqərar olması istiqamətində tədbirlərin görülməsinin vacibliyinə diqqət çəkiblər. Onlar dinlərarası münaqişəyə son qoyulmasının da önəmini vurğulayıblar. Bu sahədə bütün müttəfiqlərlə səmərəli əməkdaşlığın tərəfdarı olduqlarını bildirərək, cəmiyyətlərdə maariflənmə işlərinin aparılmasının əhəmiyyətinə toxunublar. Vəziyyətdən çıxış yolu kimi ölkələr və xalqlar arasında əlaqələrin möhkəmlənməsinin tərəfdarı olduqlarını bəyan ediblər.

Sammit «Birlikdə güclüyük» devizi altında keçirilib. İlk dəfədir təşkil edilən bu tədbirdə iştirakçı ölkələrin qlobal təhlükəsizliyin, sabitliyin təmin edilməsində, zorakılıq, terrorizm və ekstremizm ilə mübarizədə rolu və bu sahədə mövcud əməkdaşlığın daha da dərinləşdirilməsi barədə müzakirələr aparılıb. Sammit iştirakçı ölkələr arasında işgüzar, mədəni və siyasi əlaqələrin tolerantlıq və əməkdaşlığa müştərək inam vasitəsilə daha da gücləndirilməsinə xidmət edir. Tədbirin məqsədlərindən biri də ölkələr arasındakı münasibətlərdə yeni başlanğıcın və hamı üçün daha parlaq gələcəyin təməlinin qoyulmasıdır.

## BU NÖMRƏMİZDƏ

VERGİ ORQANLARINA İŞƏ QƏBUL EDİLMİŞ KADRLARLA GÖRÜŞ 2

YENİ STRATEJİ SİYASƏT İQTİSADİYYATIN DAVAMLI İNKİŞAFINA TÖHFƏ VERƏCƏK 3

SİYAHIYA ALINMIŞ ƏMLAK ELEKTRON HƏRRAC VASİTƏSİLƏ SATILACAQ 4

ƏMƏK MÜQAVİLƏLƏRİ VERGİTUTMA BAZASININ GENİŞLƏNDİRİLMƏSİNƏ XİDMƏT EDİR 5

# Vergi orqanlarına işə qəbul edilmiş kadrlarla görüş



Dünən Vergilər Nazirliyində vergi orqanlarına işə qəbul edilmiş gənc kadrlarla görüş keçirilib. Vergilər nazirinin 1-ci müavini, 3-cü dərəcəli dövlət vergi xidməti müşaviri Sahir Məmmədxanov stajçı kimi vəzifəyə təyin olunmuş gənclərı təbrik edərək bildirib ki, insan resurslarının idarə olunmasını daim diqqətdə saxlayan nazirlik ölkəmizdə işə qəbulu test üsulu əsasında keçirməyə başlayan ilk mərkəzi icra hakimiyyəti orqanlarındandır. 2005-ci ildən dövlət vergi orqanlarına işə qəbul test üsulu və müsabiqə yolu ilə keçirilməkdədir. Namizədlərin sənədlərinin qəbulu 2008-ci ildən elektron formada - internet vasitəsilə həyata keçirilir. Vergi orqanlarına işə qəbulla əlaqədar 2005-2017-ci illərdə 12 müsabiqə keçirilib, imtahanlarda 14.000 nəfərdən çox namizəd iştirak edib. Müsabiqəni müvəffəqiyyətlə başa vuran 1258 nəfər işlə təmin edilib, bu da hazırda vergi orqanlarında xidmət edənlərin 53,5%-i deməkdir. Hazırda vergi orqanlarında xidmət keçən vəzifəli şəxslərin 47,3%-nin yaşı 35-ə qədərdir. Rəhbər vəzifəli şəxslərə münasibətdə bu rəqəm 32,2%-dir.

Bu il dövlət vergi orqanlarına işə qəbulla bağlı müsabiqədə iştirak etmiş şəxslərdən 92-si test mərhələsində, 83-ü isə müsahibə mərhələsində uğur qazanaraq vergi xidməti orqanlarında işlə təmin olunmaq imkanı qazanıb.

**2005-2017-ci illərdə 12 müsabiqə keçirilib, imtahanlarda 14.000 nəfərdən çox namizəd iştirak edib. Müsabiqəni müvəffəqiyyətlə başa vuran 1258 nəfər işlə təmin edilib.**



***Regionlarda kadr potensialı gücləndirilir***

2017-ci ildə keçirilmiş son 2 müsabiqədə daha çox regionlarda yaşayan gənclərin kadr potensialına daxil edilməsinə önəm verildiyini diqqətə çatdıran S.Məmmədxanov vakant vəzifələrə təyin edilən 58 nəfərin əksəriyyətinin regionlardan olduğunu qeyd edib. Bildirilib ki, nazirlikdə kadrların peşə hazırlığı səviyyəsinin daim yüksəldilməsi məqsədilə insan resurslarının inkişafı konsepsiyası uğurla həyata keçirilir, bilik və bacarıqlarını artırmaq üçün onlara hər cür şərait yaradılıb.

İştirakçıların diqqətinə çatdırılıb ki, vergi işçilərinin peşəkarlığının artırılması məqsədilə Avropa İttifaqının Qonşuluq Siyasəti çərçivəsində İnsan resurslarının inkişafı sahəsində Azərbaycan Respublikasının Vergilər Nazirliyinə dəstək» tvinninq layihəsi həyata keçirilib. Layihə çərçivəsində Fransa və İspaniyanın təcrübəsi öyrənilib, bir sıra mühüm sahələrdə təlimçi kadrlar hazırlanıb, yeni təlim metodları tətbiq edilib. Vergilər Nazirliyi hazırda insan resurslarının idarə edilməsində ümumi yanaşmadan fərdi yanaşmaya, «bilikləri» qiymətləndirməkdən «bacarıqları» qiymətləndirməyə keçir və əsas hədəf təcrübəli kadr potensialının daim gücləndirilməsi və peşəkar işçi ordusunun formalaşmasına nail olmaqdır.

Tədbirdə yeni işə təyin olunmuş əməkdaşlara xidməti vəsiqələri təqdim olundu.

**Elbrus CƏFƏRLİ**

### *Vergilər Nazirliyində işə qəbul olunmuş gənc kadrların ürək sözləri:*

**Etibar Hüseynov:**

«Vergilər Nazirliyinə işə qəbulla əlaqədar keçirilən sonuncu müsabiqədə yüksək bal toplayıb müsahibədən uğurla keçdikdən sonra 12 saylı ƏVİ-də işə qəbul olunmuşam. Sevindirici haldır ki, bu gün Azərbaycan gəncliyinə ictimai həyatın bütün sahələrində fəal iştirak etmək üçün geniş meydan verilib. Vergi orqanlarında gənclərə bu cür etimad göstərilməsi yeni işə başlayan gənc kadr kimi məni xeyli ruhlandırır. Bizə bu etimadın göstərilməsində və şəffaf imtahan prosesinin keçirilməsində əməyi olan hər kəsə dərin təşəkkürlərimizi bildiririəm».

**Xəlil Əliyev:**

«Vergi orqanlarında çalışmaq həm şərəf, həm də böyük məsuliyyətdir.Vergi işçisinin formasını geyinməyin, ictimaiyyət arasına çıxmağın məsuliyyəti həqiqətən də böyükdür. Bu məsuliyyət hissi ilə 6 saylı ƏVİ-də keçəcəyim staj dövründə mənə göstərilən etimadı doğrultmağa, vergi ödəyicilərinin inamını qazanmağa çalışacağam. Əsas vəzifəm mənə tapşırılan işi səmərəli, keyfiyyətli və layiqincə yerinə yetirməkdir».

**İsmayıl Sultanlı:**

«Bu gün stajçı kimi işə başlayıram. Qarşıda hələ öyrənəcəyimiz çox şeylər var: vergi işçisinin atdığı hər bir addım peşəkarlığa, nəzakətə və ədalətə əsaslanmalıdır. Vergi sahəsində uzun illər çalışan peşəkar komandanın, səriştəli kadrların iş təcrübəsini mənimsəmək, bilik və bacarıqlarını öyrənmək həm vəzifə, həm də mənəvi borcumdur».

# Bəzi normativ sənədlərə dəyişiklik edilib

Vergilər nazirinin əmri ilə Vergi Məcəlləsinə edilmiş dəyişikliklərin və «Dövlət rüsumu haqqında» Qanunun tələblərindən irəli gələn məsələlərin həlli, eləcə də vergi nəzarətinin səmərəliliyinin artırılması, təhlil bazasının genişləndirilməsi məqsədilə bir neçə normativ sənəddə dəyişikliklər təsdiq edilib.

«Dövlət rüsumunun tutulması haqqında hesabat», onun 2 nömrəli Əlavəsi və tərtib edilmə Qaydaları, «Ödəmə mənbəyində tutulan vergi bəyannaməsinə Əlavə №1»in tərtib edilməsi Qaydaları yeni redaksiyada təsdiq edilib. Yeni redaksiyaya əsasən, «Dövlət rüsumunun tutulması haqqında hesabat» «Dövlət rüsumu haqqında» Azərbaycan Respublikası Qanununun 4.7-ci maddəsində qeyd edildiyi kimi, dövlət rüsumunun tutulmasına və büdcəyə ödənilməsinə məsul olan şəxslər tərəfindən hesabat rübündən sonrakı ayın 20-dək vergi orqanına təqdim edilir.

«Ödəmə mənbəyində tutulan vergi bəyannaməsinə Əlavə №1»in tərtib edilməsi Qaydalarına əsasən, Əlavədə qeyd olunası məlumat olmadığı halda, yəni bəyannamənin müvafiq sətirlərində göstəricilər qeyd edilməmişdirsə, Əlavə təqdim olunmur.

Hər iki Qayda haqqında ətraflı məlumatı Vergilər Nazirliyinin rəsmi internet saytı www.taxes.gov.az-dan və «Vergilər» qəzetinin vergiler.az saytından əldə etmək olar.

# Aktual məsələlər vergi ödəyiciləri ilə müzakirə olunur

Vergilər Nazirliyi yanında Milli Gəlirlər Departamentində Bakı şəhəri ərazisində qeydiyyatda olan sahibkarlar, iri istehsalçılar, ixrac və topdansatış fəaliyyəti göstərən vergi ödəyiciləri ilə görüş keçirilmişdir. Tədbirdə «Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişikliklər edilməsi haqqında» və «Nağdsız hesablaşmalar haqqında» qanunların tətbiqi, Nazirlər Kabinetinin 14 mart 2017-ci il tarixli qərarı ilə təsdiq edilmiş «Elektron qaimə-fakturanın forması» və «Elektron qaimə-fakturanın tətbiqi, uçotu və istifadəsi Qaydaları», Azərbaycan Respublikası Prezidentinin 19 aprel 2017-ci il tarixli fərmanı ilə təsdiq edilmiş «İctimai iaşə fəaliyyəti sahəsində vergitutma məqsədləri üçün gəlirlərin və xərclərin uçotunun aparılması» və «Pərakəndə ticarət fəaliyyəti sahəsində vergitutma məqsədləri üçün gəlirlərin və xərclərin uçotunun aparılması Qaydaları»nın tətbiqi, həmçinin «İnsan hüquqları aylığı» ilə bağlı insan hüquq və azadlıqlarının müdafiəsi, o cümlədən sahibkarların hüquqlarının müdafiəsinin daha da möhkəmləndirilməsi kimi məsələlər ətrafında müzakirələr aparılmışdır.

Tədbirdə Vergi ödəyicilərinə xidmət və şəffaf vergi partnyorluğu departamentinin baş direktoru Ələkbər Məmmədov, həmin departamentin Xidmətin təşkili idarəsinin direktoru Azər Şirinov, Vergi siyasəti və strateji araşdırmalar departamentinin Vergi siyasəti idarəsinin direktoru Əvəz Quliyev, Vergi risklərinin təhlili və nəzarəti departamentinin şöbə rəhbəri Nicat Əliyev, Milli gəlirlər departamentinin baş direktorunun müavini İmamverdi Abdullayev iştirak etmişlər.

Tədbirdə çıxış edən Ələkbər Məmmədov bildirmişdir ki, bu ilin əvvəlindən kiçik sahibkarlıq kateqoriyası üzrə sadələşdirilmiş verginin yeni növü olan sabit verginin tətbiqinə başlanılmışdır. Yəni fərdi qaydada sahibkarlıqla məşğul olan insanlar vergiödəmə yükünün azaldılması baxımından heç bir bəyannamə tətbiq etmədən əldə etdikləri mənfəətin miqdarından asılı olmayaraq, sabit bir məbləğ ödəyərək qəbz almaqla öz sahibkarlıq fəaliyyətlərini davam etdirirlər. Orta və iri sahibkarlarla iş isə sırf partnyorluq müstəvisi üzərində həyata keçirilir. Şəffaf vergi partnyoru statusu alan hər kəsə kuratorlar müəyyənləşdirilir ki, bu da nəticədə intizamlı vergi ödəyicilərinin müəyyənləşdirilməsinə imkan verir.

Görüşdə vergi ödəyicilərini maraqlandıran, sual doğuran, izahat tələb edən məsələlərə aydınlıq gətirilmişdir.

### *Tədbir iştirakçılarının təəssüratları:*

***«Azərkimya» İstehsalat Birliyinin Uçot və iqtisadiyyat idarəsinin rəis müavini Şaiq Muradov:***

«Yüksək səviyyədə təşkil olunmuş bu görüşdə bizi maraqlandıran bütün suallar Vergilər Nazirliyinin numayəndələri tərəfindən cavablandırıldı. Bəzi texniki məsələlərlə bağlı suallarımıza da yaxın zamanlarda aydınlıq gətiriləcəyi bildirildi. Düşünürəm ki, yeni islahatlar və dəyişikliklərlə bağlı vergi ödəyiciləri üçün belə maarifləndirici tədbirlər davamlı xarakter daşımalıdır».

***«Norm» MMC-nin təmsilçisi Rüfət Sadıqov:***

«Bu cür görüşlərə keçirilməsi zamanın tələbindən irəli gəlir. Son dövrlərdə Vergi Məcəlləsinə edilən dəyişikliklər, elektron qaimə-fakturanın tətbiqi bəzən sənədləşdirmələrdə müəyyən çətinliklərin, anlaşılmazlıqların yaranmasına səbəb olur. Yeni anlayışlarla bağlı hər kəsin öyrənmək istədiyi məsələlər var. Biz bu tədbirə konkret suallarla gəlmişdik və suallarımıza ətraflı cavab aldıq».

***«Azersun Holding»in təmsilçisi Azər Səmədov:***

«Vergilər Nazirliyi tərəfindən təşkil olunmuş belə görüşlərdə tez-tez iştirak edirəm və bizi maraqlandıran, aydın olmayan məsələlərlə bağlı suallarımız səlahiyyətli şəxslər tərəfindən cavablandırılır».

***«Azərstil 2009» şirkətinin təmsilçisi Mahirə Binnətova:***

«Bu görüşlərdə suallarımıza cavab almaqla yanaşı, öz irad və təkliflərimizi də çatdırmaq imkanı əldə edirik. Maarifləndirmə baxımından belə görüşlərin keçirilməsini yüksək qiymətləndirirəm və təşkilatçılara minnətdarlığımı bildirirəm».

***«Lukoyl» şirkətinin təmsilçisi Xəyalə Əlizadə:***

«Çox maraqlı görüş oldu. Faydalı məsləhətlər və açıqlamalar dinlədik, yeni qanunvericiliklə bağlı biliklər əldə etdik. Öyrəndiklərimizdən bundan sonrakı iş həyatımızda, əmək fəaliyyətimizdə istifadə edəcəyik».

**Fəxriyyə İKRAMQIZI**

# Regionlarda sahibkarlarla silsilə görüşlər keçirilib

**Mayın 17-dən 19-dək Sumqayıt, Quba, Şamaxı, Şirvan, Lənkəran, Beyləqan, Göyçay, Qəbələ, Mingəçevir, Gəncə, Zaqatala, Şəmkir rayonlarında Vergilər Nazirliyinin əməkdaşları ilə vergi ödəyicilərinin, sahibkarların ictimai birlikləri və qeyri-hökumət təşkilatlarının nümayəndələrinin silsilə görüşləri olub. Respublikanın bütün ərazi vergi idarələrini və departamentlərini əhatə edən tədbirlərdə 1000-dən artıq vergi ödəyicisi iştirak edib.**



Görüşlər zamanı 2017-ci il yanvarın 1-dən qüvvəyə minmiş Vergi Məcəlləsinə əlavə və dəyişikliklərlə bağlı qanunun tətbiqinin vəziyyəti, qarşıya çıxan bəzi problemlərin həlli yolları, aprelin 1-dən hüquqi şəxslər üçün tətbiq olunan elektron qaimə-fakturanın təqdim olunmasına sahibkarların əməl etməsi, ictimai iaşə və pərakəndə satışda gəlir və xərclərin uçotunun aparılması qaydaları, nağdsız hesablaşmalar və digər mövzularda çıxışlar olmuş, geniş müzakirələr aparılıb.

Sumqayıt və Quba şəhərlərində keçirilən görüşlərdə çıxış edən vergilər nazirinin müşaviri, Vergi ödəyicilərinə xidmət və şəffaf vergi partnyorluğu departamentinin baş direktoru Ələkbər Məmmədov ölkəmizdə həyata keçirilən vergi siyasətinin əsas məqamları barədə iştirakçılara ətraflı məlumat verib.

Vergi ödəyicilərinə xidmət və şəffaf vergi partnyorluğu departamentinin Xidmətin təşkili idarəsinin direktoru Azər Şirinov vergi ödəyicilərinin nəzərinə çatdırıb ki, Prezident İlham Əliyevin sərəncamı ilə hər il may ayının 18-dən iyun ayının 18-dək keçirilən «İnsan hüquqları aylığı»nın əsas məqsədi insan hüquqlarının qorunması sahəsində aktual olan məsələləri gündəliyə gətirməkdir. Qeyd olunmuşdur ki, Vergilər Nazirliyinin fəaliyyətində də insan hüquqlarının qorunmasına xüsusi diqqət yetirilir. Vergi sistemində aparılan islahatların prioritet istiqamətlərinin əsasını vergi ödəyicilərinə göstərilən xidmətlərin səviyyəsinin yüksəldilməsi və vergi ödəyicilərinin hüquqlarının qorunması təşkil edir. Bu məqsədlə vergi ödəyicilərinin məlumatlandırılması və maarifləndirilməsi sahəsində kompleks tədbirlər həyata keçirilir. Son illərdə Vergi Məcəlləsinə edilən əlavə və dəyişikliklərin böyük əksəriyyətində sahibkarlığın inkişafını stimullaşdıran, onların hüquqlarının qorunmasına xidmət edən müddəalar öz əksini tapıb. 2010-cu ildən Vergilər Nazirliyində «Onlayn kargüzarlıq» sistemi tətbiq olunur, ölkə vətəndaşları artıq bütün müraciətlərini vergi orqanına kompüter və ya mobil telefon vasitəsilə internet üzərindən göndərə bilirlər. Vergi ödəyicilərinin hüquqlarının və qanuni mənafelərinin müdafiəsi məqsədilə bir neçə ildir ki, nazirlikdə Vergi Apelyasiya Şurası fəaliyyət göstərir. Vergi Məcəlləsinə edilən son dəyişikliklərə əsasən, vergi ödəyicilərinin hüquqlarının və mənafelərinin qorunması, vergi inzibatçılığının, vergi nəzarətinin təkmilləşdirilməsi məsələlərinə geniş yer verilib. Vergi ödəyicilərinə xidmətin keyfiyyətinin yüksəldilməsi məqsədilə şəffaf vergi partnyorluğu idarələri yaradılıb.

Vergilər Nazirliyinin Vergi siyasəti və strateji araşdırmalar departamentinin Vergi siyasəti idarəsinin direktoru Əvəz Quliyev sahibkarlarla görüşlər zamanı diqqəti tikinti sahəsində qeyri-rəsmi əmək münasibətlərinin qarşısının alınması ilə bağlı görülən işlərə yönəldərək bildirib ki, bu sahədə monitorinqlərin həyata keçirilməsi və nəzarət fəaliyyətinin əlaqələndirilməsi məqsədilə Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin Əmək Münasibətlərinin Monitorinqi Mərkəzi yaradılıb. Vergilər Nazirliyi ilə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi qeyri-rəsmi əmək münasibətlərinin qarşısının alınması sahəsində birgə tədbirlər həyata keçirməyə başlayıblar. Bu sahədə şəffaflığı təmin etmək məqsədilə tikinti obyektlərinə səyyar monitorinq qruplarının göndərilməsi, aşkar edilmiş faktların sənədləşdirilməsi, inzibati məsuliyyət tədbirlərinin tətbiq olunması məsələləri nəzərdə tutulub.

Görüşlərdə vergi qanunvericiliyinə edilmiş dəyişikliklərə sahibkarların əməl etməsi, pərakəndə ticarətdə uçotun təşkili, elektron ticarət sahəsində mövcud vəziyyət və digər mövzularda çıxışlar dinlənilib, vergi ödəyicilərinin bu sahələrdə qarşılaşdıqları çətinliklərin aradan qaldırılması yolları müzakirə olunub.

Görüşlərin əhəmiyyətli cəhətlərdən biri də odur ki, bölgələrdə fəaliyyət göstərən sahibkarları maraqlandıran suallar, narahat edən məsələlər barədə onlar birbaşa konkret sahələrə məsul olan nazirlik rəsmilərindən ətraflı cavablar alıblar. «Hindarx Kredit İttifaqı» MMC-nin rəhbəri Murad Zeynalov, «Optimal Kredit» MMC-nin nümayəndəsi Elman Süleymanov, «Muğanlı 45» firmasının rəhbəri Teymur Rəhimov, kiçik sahibkar Mehman Əliyev və digərləri elektron qaimə-fakturaların tətbiqi, nağd ödəmələrə qoyulmuş limitlər, elektron ödənişlər zamanı xidmət haqqının tutulması ilə bağlı üzləşdikləri çətinlikləri diqqətə çatdırıblar. Qeyd olunan problemlərin aradan qaldırılması üçün müvafiq qurumlarla birgə araşdırmaların aparılacağı və lazımi tədbirlər görüləcəyi bildirilib.

**Elbrus CƏFƏRLİ**

# Yeni strateji siyasət iqtisadiyyatın davamlı inkişafına töhfə verəcək

**Azərbaycan Prezidenti İlham Əliyevin vergi orqanları qarşısında qoyduğu vəzifələrin icrasını təmin etmək məqsədilə vergitutma bazasının genişləndirilməsi, mövcud vergi potensialından daha səmərəli istifadə olunması üçün ciddi vergi-büdcə təhlilləri aparılır. Vergi Məcəlləsinə və bir sıra qanunvericilik aktlarına edilmiş son dəyişikliklərin böyük əksəriyyəti vergi ödəyicilərinin hüquqlarının genişləndirilməsinə, vergi yükünün azaldılmasına, vergi inzibatçılığının təkmilləşdirilməsinə, vergidən yayınma halları ilə mübarizənin gücləndirilməsi yolu ilə büdcə daxilolmalarının artırılmasına xidmət edir. Vergi orqanları qarşısında dövlət büdcəsinin icrası ilə yanaşı, sahibkarlığın inkişafı, xüsusilə kiçik və orta biznesin fəaliyyətinin genişləndirilməsinin təşviqi əsas vəzifə kimi durur.**

Milli Məclisin İqtisadi siyasət, sahibkarlıq və sənaye komitəsinin sədri Ziyad Səmədzadə bildirib ki, Azərbaycan iqtisadiyyatında və vergi sistemində aparılan mühüm islahatlar nəticəsində ölkə iqtisadiyyatında son 10 ildə köklü dəyişikliklər baş verib: «Əldə olunmuş iqtisadi uğurlarda vergi siyasətinin çox əhəmiyyətli rolu olub. Vergilərin həcminin ilbəil artması ölkəmizdə güclü maliyyə bazasının formalaşmasına şərait yaradır. Vergi Məcəlləsində 2017-ci il yanvarın 1-dən qüvvəyə minmiş yeni əlavə və dəyişikliklər ölkənin müasir iqtisadi çağırışlarından irəli gələn tələbləri özündə əks etdirib. Məcəllədə vergi inzibatçılığının təkmilləşdirilməsi, vergi uçotunun tənzimlənməsi və uçot sisteminin şəffaflaşdırılması, vergi ödəyicilərinin hüquqlarının genişləndirilməsi, vergi yükünün azaldılması ilə bağlı çox mühüm müddəalar yer alıb. Vergi qanunvericiliyinə edilmiş dəyişikliklərin əsas mahiyyəti ölkədə biznes mühitinin yaxşılaşdırılması və sahibkarlığın fəaliyyətinin stimullaşdırılması, nağdsız əməliyyatların həcminin və vergi mühitinin cəlbediciliyinin artırılması yolu ilə iqtisadiyyata investisiya qoyuluşlarının təşviq edilməsi, ixracın stimullaşdırılması, dürüst və şəffaf uçotun qurulması ilə bağlıdır. Dövlətin yaratdığı bu əlverişli imkanlar kiçik və orta sahibkarlığa daha geniş meydan verir. Aparılan islahatlar ölkədə biznes fəallığının, sahibkarlıq subyektlərinin sayının və iqtisadiyyatın qeyri-neft sektorundan daxil olan vergilərin artmasına səbəb olacaq».

Qeyd edilib ki, nağdsız ödənişlərin inkişaf etdirilməsi və uçot sisteminin təkmilləşdirilməsi ilə bağlı yeni qaydaların qüvvəyə minməsi ölkədə şəffaflığa şərait yaratmaqla yanaşı, Azərbaycanın inkişaf etmiş dövlətlər səviyyəsinə yüksəlməsi baxımından mühüm əhəmiyyət kəsb edir, respublikamızın beynəlxalq imicinin artmasına təkan verir. Düzgün uçot Azərbaycanın bir sıra makroiqtisadi göstəricilərinin beynəlxalq səviyyədə yaxşılaşmasında müsbət rol oynayır.

*Sahibkarlıq fəaliyyətinin stimullaşdırılması məqsədilə...*

Vergi Məcəlləsinin 3.10-cu maddəsinin tələblərinə uyğun olaraq, vergi sistemi sahibkarlıq və investisiya fəaliyyətini təşviq etməli olduğundan, habelə Məcəllənin 3.11-ci maddəsinə əsasən, vergilər haqqında qanunvericiliyin bütün ziddiyyətləri və aydın olmayan məqamları vergi ödəyicisinin xeyrinə şərh edildiyindən, bir sıra hallarda aparılan araşdırmalar hesablanmış vergilərin azaldılması və tətbiq olunmuş maliyyə sanksiyalarının ləğvi ilə nəticələnir. Ölkəmizdə daha əlverişli biznes mühitinin formalaşması və sahibkarların, xüsusilə də kiçik və orta sahibkarların vergi borclarının ləğv edilməsində onlara kömək göstərilməsi məqsədilə vergi orqanlarında aparılmış hərtərəfli araşdırmalar nəticəsində vergi ödəyicilərinin çoxu yaranmış vergi borclarını büdcəyə ödəyib, mövcud qanunvericiliyin tələblərinə uyğun olaraq bir sıra vergi ödəyicilərinin borcları azaldılıb, ötən il 24 minə yaxın vergi ödəyicisinin əsasən kiçik məbləğlərdə borcları tamamilə ləğv edilib.

Yaranmış borclar üzrə «Vergi ödəyicilərinin 2017-ci ilin 1 yanvar tarixinə mövcud olan vergi borclarının tənzimlənməsi haqqında» Qanunla sahibkarlara hesablanmış faizlərin və maliyyə sanksiyalarının tam silinməsi, digər maliyyə sanksiyaları üzrə isə müəyyən edilmiş şərtlər daxilində silinmələr üçün imkan verilib. Cari ilin 1-ci rübü ərzində 35.542 vergi ödəyicisinin 251 milyon 086,4 min manat məbləğində borcu yaranıb, 34.070 vergi ödəyicisinin 643 milyon 831,1 min manat məbləğində borcu ləğv edilib, 69.329 vergi ödəyicisinin 728 milyon 83,1 min manat məbləğində borcu qeyd-şərtsiz silinib. Bundan əlavə, həmin Qanunun 2.2-ci və 3-cü maddələrinə əsasən, yanvar-mart ayları ərzində edilmiş 8 milyon 013,1 min manat ödəniş müqabilində 4428 vergi ödəyicisinin 1 yanvar 2017-ci il tarixə mövcud olan maliyyə sanksiyaları üzrə borclarının 13 milyon 760,9 min manatı silinib.

> Vergi qanunvericiliyinə edilmiş dəyişikliklərin əsas mahiyyəti ölkədə biznes mühitinin yaxşılaşdırılması və sahibkarlığın fəaliyyətinin stimullaşdırılması, nağdsız əməliyyatların həcminin və vergi mühitinin cəlbediciliyinin artırılması yolu ilə iqtisadiyyata investisiya qoyuluşlarının təşviq edilməsi, ixracın stimullaşdırılması, dürüst və şəffaf uçotun qurulması ilə bağlıdır

*Vergiyə aid istiqamətlər üzrə uğurlu nəticələr əldə edilib*

Vergi orqanları vergilərin hesablanmasını və ödənilməsini özündə əks etdirən, vergi ödəyicisinin fəaliyyəti haqqında vergi orqanında olan sənədlər, mənbəyi məlum olan məlumatlar əsasında vergi ödəyicilərinin fəaliyyətinə heç bir müdaxilə etmədən, distant təhlillərə əsaslanan kameral vergi yoxlamalarına daha çox üstünlük verirlər. Bu isə sahibkarların biznes fəaliyyətinə maneçilik törətmədən vergilərin hesablanmasında və dövlət büdcəsinə ödənilməsində vergi ödəyiciləri tərəfindən yol verilən nöqsanların ciddi hüquqi nəticələrə səbəb olmadan aradan qaldırılmasına, büdcə daxilolmalarının artmasına öz müsbət təsirini göstərir.

Sahibkarların maraqlarının müdafiəsini gücləndirmək və dövlət dəstəyini artırmaq, əlverişli biznes mühiti formalaşdırmaq məqsədilə ölkə Prezidentinin təşəbbüsü ilə «Sahibkarlıq sahəsində aparılan yoxlamaların dayandırılması haqqında» Qanun qəbul edilib. Qanunda vergi yoxlamalarının dayandırılması və ya ləğv olunması nəzərdə tutulmayıb. Buna baxmayaraq, Vergilər Nazirliyi yoxlamaların azaldılması ilə bağlı qərar qəbul edib. Vergilər nazirinin əmri ilə illik dövriyyəsi 120 min manatdan aşağı olan sahibkarlıq subyektlərində səyyar vergi yoxlamaları və vergi nəzarəti tədbirlərinin (əmək müqavilələrinin bağlanmasına və aksizli məhsulların satışı zamanı aksizlərin tətbiqinə nəzarət, habelə dövriyyənin müəyyənləşdirilməsi üçün xronometraj metodu ilə müşahidələrin aparılması istisna olmaqla) keçirilməsi müvəqqəti olaraq dayandırılıb. Vergi yoxlamalarının məhdudlaşdırılmasında əsas məqsəd vergi ödəyiciləri ilə münasibətləri partnyorluq səviyyəsində qurmaqdır. Yəni vergi orqanları kiçik və orta bizneslə məşğul olan vergi ödəyiciləri ilə nəzarətdən çox əməkdaşlığa üstünlük verirlər. Vergi Məcəlləsində konkret peşə adları qeyd olunan kiçik vergi ödəyicilərinin isə bu sahədə işləri tamamilə yüngülləşdirilib. Onlar vergi bəyannamələri təqdim etməyərək, kiçik və sabit məbləğdə vergi ödəməklə öhdəliklərini yerinə yetirmiş olurlar. Dəyişikliklərə əsasən, vergi öhdəliklərini sadələşdirilmiş vergi üzrə sabit məbləğin ödənilməsi haqqında qəbz almaqla yerinə yetirən şəxslər vergi orqanına bəyannamə təqdim etmirlər. Bu dəyişikliklər fərdi qaydada fəaliyyət göstərən aşağı gəlirli fiziki şəxslərin vergi və inzibati yükünün azaldılmasına xidmət edir.

Vergi sisteminin davamlı olaraq təkmilləşdirilməsi və qabaqcıl dünya standartlarına cavab verməsi nüfuzlu beynəlxalq təşkilatlar tərəfindən də yüksək qiymətləndirilir. Azərbaycan Dünya Bankının 190 ölkənin biznes mühitini qiymətləndirən «Doing Business 2017» hesabatında vergiyə aid istiqamətlər üzrə ən yaxşı nəticələr əldə edib. Respublikamız «Biznesə başlama» («Starting business») göstəricisi üzrə əvvəlki illə müqayisədə 2 pillə irəliləyərək ilk beşlikdə qərarlaşıb. Bu, yerli və xarici ekspertlər tərəfindən Vergilər Nazirliyinin həyata keçirdiyi uğurlu islahatlara müsbət münasibətin nəticəsi hesab olunur.

*İslahatlar davam etdirilir*

«Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsi»ndə əlverişli biznes mühitinin inkişaf etdirilməsi və səmərəli vergi sisteminin təşviqi başlıca məqsəd kimi müəyyənləşib. 2017-ci ildə Azərbaycanda büdcənin hazırlanması mexanizminin ortamüddətli xərclər çərçivəsinə uyğun təkmilləşdirilməsi nəzərdə tutulur. Bu məqsədlə fiskal intizamın təmin edilməsi, dövlət büdcəsi göstəricilərinin proqnozlaşdırılması və büdcə resurslarının sektorlararası və sektorlardaxili düzgün bölüşdürülməsi qarşıya məqsəd qoyulub. Həmin məqsədlərin gerçəkləşməsində aparılan vergi siyasəti də ölkədə gedən iqtisadi proseslərlə ahəngdar şəkildə uyğunlaşdırılır.

Yeni strateji siyasət şəffaflığı artırmaq, vergi ödəyiciləri ilə vergi orqanları arasında qarşılıqlı inamı gücləndirmək, eləcə də davamlı iqtisadi inkişafın təşviqində vergi potensialını müəyyən etmək üçün vergi sistemi və inzibatçılığının təkmilləşdirilməsi sahəsində islahatların davam etdirilməsini nəzərdə tutur. Bu hədəflərə doğru irəliləmək məqsədilə şirkətlərin vergi yükü və bütün əməliyyatlar üçün dəyər zənciri boyunca vergilər nəzərə alınaraq, ədalətli vergi səviyyəsi qiymətləndiriləcək. Sahibkarlıq subyektlərinə lazım olan maliyyə öhdəliyinin proqnozlaşdırılması üçün ölkənin vergi öhdəliklərinin aydın müəyyənləşdirilməsi və proqnozlaşdırılması sahəsində mümkün islahatlar təhlil ediləcək, sahibkarlıq subyektlərinin rəsmi qeydiyyatını təşviq etmək və vergi bazasını genişləndirmək məqsədilə vergi əməletməsi xərclərinin azaldılması təşəbbüsləri nəzərdən keçiriləcək.

**Rəşad SADIQOV**

# Regionlarda məşğulluq imkanları genişləndirilir

***İqtisadiyyat Nazirliyinin məlumatına görə, 2017-ci ilin birinci rübü ərzində ölkədə 79 min 600-ü daimi olmaqla 86 min 400 yeni iş yeri açılıb. Bunların 87,5%-i qeyri-dövlət sektoruna aiddir. Yeni iş yerlərinin 76,2%-i regionların, 23,1%-i Bakı şəhərinin, 0,7%-i isə Naxçıvan Muxtar Respublikasının payına düşür. Regionlarda yaradılmış yeni iş yerləri Aran iqtisadi rayonu üzrə 25,7%, Lənkəran üzrə 13,9%, Gəncə-Qazax üzrə 11,3%, Dağlıq Şirvan üzrə 5,8%, Şəki-Zaqatala üzrə 5,7%, Abşeron rayonu üzrə 5,6%, Quba-Xaçmaz üzrə 4,7%, Yuxarı Qarabağ üzrə 3,2%, Kəlbəcər-Laçın üzrə 0,3% təşkil edir.***

*Vergi siyasəti yeni iş yerlərinin yaradılmasını təşviq edir*

2017-ci il yanvarın 1-dən qüvvəyə minmiş Vergi Məcəlləsinə əlavə və dəyişikliklərin böyük bir qismi sahibkarlıq fəaliyyətinin stimullaşdırılmasına yönəlib. Vergi siyasətinin təkmilləşdirilməsi xüsusilə regionlarda çalışan sahibkarlar üçün öz istehsal sahələrini artırmaları, yeni müəssisələr yaratmaları üçün əlverişli fürsət deməkdir. Regionların inkişafı ilə əlaqədar qəbul olunmuş sosial-iqtisadi inkişaf strategiyasının mühüm tərkib hissəsi olan dövlət proqramlarının qəbulu və uğurla həyata keçirilməsi bölgələrdə investisiya qoyuluşunun yüksəlməsinə, yeni müəssisələrin və iş yerlərinin yaradılmasına, biznes mühitinin daha da yaxşılaşdırılmasına, nəticədə əhalinin məşğulluğunun artmasına və yoxsulluq səviyyəsinin azalmasına təkan verib. Daimi iş yerlərinin 5,8%-i yeni yaradılmış müəssisə və təşkilatlara, 13,2%-i mövcud müəssisə və təşkilatlarda, 0,9%-i fəaliyyətini bərpa etmiş müəssisə və təşkilatlara aiddir, 80,1%-i isə fərdi sahibkarlıq subyektləri tərəfindən yaradılıb. Hüquqi şəxslər tərəfindən yaradılmış daimi iş yerlərinin 24,3%-i ticarət və nəqliyyat vasitələrinin təmiri, 20%-i tikinti, 8,4%-i emal sənayesi, 6,6%-i su təchizatı, 6,1%-i nəqliyyat və anbar təsərrüfatı, 5,9%-i dövlət idarəetməsi müdafiə və sosial təminat, 4,9%-i daşınmaz əmlakla əlaqədar əməliyyatlar, 4,3%-i turistlərin yerləşdirilməsi və ictimai iaşə, 3,8%-i inzibati və yardımçı xidmətlərin göstərilməsi, 15,7%-i isə digər iqtisadi fəaliyyət növlərinin payına düşür.

Regionlarda yaradılan yeni iş yerləri azad biznesin və sahibkarlığın inkişafının göstəricisi olmaqla, həmçinin ölkədə əlverişli vergi mühitinin təmin edildiyini təsdiqləyir.

*Regionlardan vergi daxilolmalarının həcmi artıb*

Vergilər Nazirliyinin Ərazi vergi orqanları ilə iş üzrə departamentinin baş direktoru Elçin Bəylərovun sözlərinə görə, son illər regionların sosial-iqtisadi inkişafına yetirilən xüsusi diqqət və yürüdülən səmərəli vergi siyasəti bu sahədə böyük dəyişikliklərin baş verməsinə səbəb olmaqdadır. Bu siyasət sahibkarlıq mühitinin daha da yaxşılaşdırılmasına və sahibkarların fəaliyyətinin genişlənməsinə, qeyri-neft sektorunun davamlı inkişafına, yeni müəssisələrin və iş yerlərinin yaranmasına imkan yaradıb. Nəticədə regionlardan büdcə daxilolmalarının həcmi əhəmiyyətli şəkildə artıb. 2016-cı ildə vergi daxilolmaları 600,8 milyon manat təşkil edib ki, bu da 2003-cü illə (37,7 milyon manat) müqayisədə 16 dəfə artım deməkdir.

E.Bəylərov bildirib ki, cari ildə aparılan yeni islahatlar iqtisadi sistemin şəffaflaşmasına, əlverişli biznes mühitinin formalaşmasına, sahibkarlıq subyektlərinin fəaliyyətinin cəlbediciliyinin artırılmasına şərait yaradıb, nəticədə 2017-ci ilin yanvar-aprel ayları ərzində ərazi vergi orqanları üzrə 20 mindən yuxarı vergi ödəyicisi fəaliyyətini bərpa edib və bu, ötən ilin analoji dövrü ilə müqayisədə 1,1 dəfə çoxdur. Cari ilin yanvar-aprel ayları ərzində ərazi vergi orqanları tərəfindən dövlət büdcəsinə 155,4 milyon manat proqnoza qarşı 176,6 milyon manat vəsait daxil olub ki, bu da proqnoz tapşırığının 113,6 % icrası deməkdir. Vergi daxilolmalarının həcminin artırılmasında başlıca istiqamətlərdən biri kimi vergidən yayınmaların qarşısının alınması məqsədilə nağd hesablaşmaların məhdudlaşdırılması və transfert qiymətlərinin tətbiqinə nəzarətin gücləndirilməsi, ƏDV-nin vergitutma bazasının genişləndirilməsi ilə bağlı tədbirlərin görülməsi nəzərdə tutulur.

Yeni yaradılan iş yerlərinin regionlar üzrə dinamikası




*30-dan artıq rayon öz gəlirləri hesabına xərclərini ödəyir*

Regionların inkişafı ilə bağlı yürüdülən siyasət rayonların öz xərclərini yerli gəlirlər hesabına təmin etməsinə səbəb olub. 2012-2016-cı illərdə Sumqayıt, Abşeron, Şirvan, Mingəçevir, Naftalan və İmişli subsidiyasız, yerli gəlirlər hesabına öz xərclərini ödəyiblər. Bu, regionlarda qeyri-neft sektorunun inkişafı, vergi potensialının genişləndirilməsi və daxili gəlirlərin artması hesabına baş verib. 2017-ci ildə isə respublikanın 33 şəhər və rayonu öz xərclərini mərkəzləşdirilmiş büdcədən dotasiya almadan vergilərin hesabına formalaşdırması qarşıya məqsəd qoyulub. 2017-ci ilin ilk rübünün nəticələri bu siyasətin özünü doğrultduğunu deməyə əsas verir. Belə ki, ərazi vergi orqanlarının əhatə dairəsinə daxil olan öz gəlirləri hesabına xərclərinin ödənilməsinin təmin edilməsi nəzərdə tutulmuş 33 rayon və şəhər üzrə proqnoz tapşırıqları tam icra olunub.

Regionlardakı inkişafı İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi tərəfindən hazırlanmış Azərbaycanın inzibati rayonlarının 2017-ci il üzrə investisiya reytinqi də təsdiq edir. Məsələn, Bakı, Naxçıvan, Mingəçevir, Sumqayıt, Şirvan, Gəncə və Naftalan şəhərləri, Abşeron, İmişli və Culfa rayonlarında iqtisadi fəallıq daha da artıb. Eləcə də digər rayonlarda 2015-2016-cı illərdə nəzərə çarpan iqtisadi zəifləmə aktivliklə əvəz olunub.

Hazırda regionlardakı qeyri-neft potensialının səfərbər edilərək əlavə dəyərin yaradılmasına cəlb olunması və vergi daxilolmalarında qeyri-neft sektorunun payının daha da artırılması istiqamətində məqsədyönlü siyasət yürüdülməkdədir. Ölkəmizin müxtəlif bölgələrində yaradılan sənaye məhəllələrinə vergi güzəştlərinin verilməsi, aqrar parkların yaradılması infrastruktur şəbəkələrinin genişləndirilməsinə, aqrar sahədə məhsul istehsalının həcminin artırılmasına, qeyri-neft sektorunun ixrac potensialının gücləndirilməsinə öz töhfəsini verəcək.

**E. CƏFƏRLİ**

## ELAN

**Hörmətli vergi ödəyicisi!**

Fəaliyyətiniz zamanı vergi orqanı əməkdaşları tərəfindən korrupsiya və digər hüquqpozma hallarına yol verildiyi ilə rastlaşdıqda, aşağıdakı imkanlardan istifadə etməklə, vergi orqanına müraciət edə bilərsiniz:

* Vergilər Nazirliyinin rəsmi internet səhifəsində (www.taxes.gov.az) «Onlayn müraciətlər» bölməsinin «Vergi orqanı əməkdaşlarının fəaliyyətində korrupsiya və digər hüquqpozma halları barədə məlumat ver» alt bölməsinə;
* Vergilər Nazirliyinin poçt ünvanına və ya Daxili təhlükəsizlik departamentinə üzərində «MƏXFİ - Daxili təhlükəsizlik departamentinə» qeydi olan məktubları göndərməklə.
Ünvan: AZ1073, Bakı şəhəri, Landau küçəsi 16, Vergilər Nazirliyi;
* Daxili təhlükəsizlik departamentinə gəlməklə və məlumatı şəxsən (şəxsiyyətinizi təsdiq edən sənədlə) təqdim etməklə.
Ünvan: AZ1073, Bakı şəhəri,
Landau küçəsi 16, Vergilər Nazirliyi,
Daxili təhlükəsizlik departamenti;
* Vergilər Nazirliyinin Çağrı Mərkəzinə (195-1)

Vergi ödəyicisinin sualı var...



Samirə Musayeva
Vergilər Nazirliyinin Vergi siyasəti və strateji araşdırmalar departamentinin baş direktoru vergi ödəyicilərinin suallarına cavab verir

## Nağdsız məbləğin NKA-ya mədaxil edilməsi

***İctimai iaşə obyektində müştəri tərəfindən hesabların ödənilməsi POS-terminal vasitəsilə nağdsız qaydada aparıldıqda, həmin məbləğ NKA-ya mədaxil edilməlidirmi?***

Vergi Məcəlləsinin 16-cı maddəsinin müddəalarına əsasən, nağd pul hesablaşmaları aparılan zaman alıcıya çek, qəbz, bank çıxarışları və digər ciddi hesabat blanklarını təqdim etmək və həmin çek, bank çıxarışları və ya ciddi hesabat blanklarında qanunvericiliklə müəyyən olunmuş məlumatların əks etdirilməsini təmin etmək, o cümlədən nağdsız ödənişlərin aparılması üçün «İstehlakçıların hüquqlarının müdafiəsi haqqında» Qanunun 17-ci maddəsinə uyğun olaraq, POS-terminalların quraşdırılmasını təmin etmək vergi ödəyicisinin vəzifələrinə aid edilmişdir.

Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 19 aprel tarixli 1341 nömrəli Fərmanı ilə təsdiq edilmiş «İctimai iaşə fəaliyyəti sahəsində vergitutma məqsədləri üçün gəlirlərin və xərclərin uçotunun aparılması Qaydası»nın 4.3-cü bəndində göstərilir ki, ictimai iaşə obyektlərində xidmət göstərilməsi nəzarət-kassa aparatı və POS-terminallar tətbiq edilməklə həyata keçirilir. Bu zaman xidmətlərin dəyəri nağd qaydada ödənildikdə müştəriyə (istehlakçıya) nəzarət-kassa aparatının çeki, xidmətlərin dəyəri POS-terminal vasitəsilə ödənildikdə isə müştəriyə (istehlakçıya) nəzarət-kassa aparatının çeki və POS-terminaldan çıxarış verilir.

**Qeyd olunanlara əsasən:** İctimai iaşə obyektlərində xidmətlərin dəyəri POS-terminal vasitəsilə ödənildikdə müştəriyə (istehlakçıya) nəzarət-kassa aparatının çeki ilə yanaşı, POS-terminaldan çıxarış da təqdim olunur.

Suallarınızı redaksiyamızın ünvanına: AZ 1073, Bakı ş., Landau küç., 16 və ya **s.musayeva@taxes.gov.az** elektron poçt ünvanına göndərə bilərsiniz

# Siyahıya alınmış əmlak elektron hərrac vasitəsilə satılacaq

***Nazirlər Kabinetinin qərarı ilə «Vergi ödəyicisinin siyahıya alınmış əmlakının satışı məqsədilə elektron hərracın təşkili və keçirilməsi Qaydaları» təsdiq edilmişdir. Burada «elektron hərrac» dedikdə, icra məmurunun sifarişi əsasında vergi ödəyicisinin siyahıya alınmış əmlakının elektron hərracın təşkilatçısı tərəfindən rəsmi internet saytı vasitəsilə elektron qaydada ixtisaslaşdırılmış açıq hərraclarda satışı başa düşülür.***

Vergi öhdəliklərinin icrasına nəzarət departamentinin İcra qurumları ilə işin təşkili şöbəsinin baş dövlət vergi müfəttişi Nizami Əhmədovun sözlərinə görə, elektron hərrac zamanı hər hansı bir iştirakçıya digərlərindən fərqli və ya qanunvericilikdə nəzərdə tutulmayan güzəştlərin verilməsinə, elektron hərracın təşkilatçısı tərəfindən iştirakçıların rəqabət aparmasına məhdudiyyətin qoyulmasına yol verilmir. Elektron hərracın təşkilatçısı icra məmurunun sifarişini və sifarişə əlavə edilmiş Vergi Məcəlləsinin 90.3.3-cü maddəsində göstərilən sənədləri aldıqdan sonra elektron hərracın keçiriləcəyi tarixə ən azı 10 gün, yararlılıq müddəti başa çatmaqda, habelə yararsız hala düşmək təhlükəsi olan ərzaq və qeyri-ərzaq məhsulu olan əmlak satıldıqda isə ən azı 5 gün qalmış kütləvi informasiya vasitələrində, özünün rəsmi internet saytında, digər internet saytlarında və sosial şəbəkələrdə elektron hərraca çıxarılacaq əmlaklar barədə elan yerləşdirməlidir. Elanda hər bir lot üzrə ayrı-ayrılıqda satışa çıxarılan əmlakın siyahısı, fotoşəkli, yerləşdiyi ünvan, siyahı üzrə əmlakın ayrı-ayrılıqda ilkin satış qiyməti, əmlakın sahibi barədə məlumat, behin məbləği və həmin məbləğin köçürüləcəyi bank hesabı, hərracın keçirilmə tarixi, vaxtı və yeri, əlaqə telefonunun nömrəsi, hərracın təşkilatçısının adı, ünvanı, əlaqə telefonu və s. rekvizitləri yerləşdirilməlidir.

Elektron hərracda iştirak etmək istəyən fiziki və hüquqi şəxslər hərrac mərkəzinin internet səhifəsində «Qeydiyyat» bölməsinə daxil olaraq tələb olunan məlumatları doldurmaqla qeydiyyatdan keçməlidirlər. Elektron hərracın təşkilatçısı gücləndirilmiş elektron imza vasitəsilə qeydiyyatdan keçmək istəyən şəxslərə texniki imkan yaratmalı, məlumatların qorunması və məxfiliyinin təmin olunması üçün təhlükəsizlik tədbirləri görməlidir: «Bundan sonra elektron hərracda iştirak etmək istəyən fiziki və hüquqi şəxslər saytın «Şəxsi kabinet» bölməsinə daxil olaraq Qaydalarla təsdiq edilmiş 1 və 2 nömrəli əlavədə qeyd olunan «Elektron hərracda iştirak barədə ərizə» formasını elanda göstərilən müddətdə dolduraraq elektron şəkildə göndərməli, elanda göstərilən bank hesabına nağdsız qaydada beh məbləğinin ödənilməsini təmin etməlidirlər. Ərizədə tələb olunan məlumatlar düzgün və tam göstərilməlidir. Ərizə elektron şəkildə göndəriləndən sonra ərizəçiyə ərizənin 2 iş günü ərzində yoxlanılıb nəticəsi haqqında məlumat veriləcəyi barədə elektron şəkildə məlumat göndəriləcək. Elektron hərracın təşkilatçısı 2 iş günü ərzində verilmiş ərizələrin düzgün doldurulub-doldurulmamasını yoxlayıb nəticəsi barədə ərizəçiyə elektron şəkildə məlumat göndərməlidir. Düzgün doldurulmaması halı aşkar edildikdə ərizə qeydiyyatdan keçirilməyəcək və ödənilmiş beh ərizəçiyə geri qaytarılacaq. Ərizə düzgün doldurulduqda elektron hərracın təşkilatçısı tərəfindən iştirakçıların iştiraketmə nömrəsini əks etdirən bilet ərizəçiyə elektron şəkildə göndəriləcək. Elektron hərracda iştirak etmək məqsədilə ərizənin verilməsi üçün müəyyən edilmiş müddət başa çatdıqdan sonra daxil olan ərizələr qəbul edilməyəcək. Bu hərraclarda alıcı kimi Mülki Məcəllənin tələblərinə uyğun olaraq mülki-hüquqi fəaliyyət qabiliyyətli fiziki şəxslər və hüquqi şəxslər iştirak edə biləcəklər».

N.Əhmədovun sözlərinə görə, ərizəçi öz ərizəsini ərizənin verilməsi üçün müəyyən edilmiş müddət başa çatanadək geri götürə bilər. Bunun üçün hərrac mərkəzinin internet səhifəsində «Şəxsi kabinet» bölməsinə daxil olaraq «Hərracda iştirak etməkdən imtina et» əməliyyatı yerinə yetirilməli və elektron hərracın təşkilatçısı bu barədə elektron şəkildə məlumatlandırılmalıdır. Bu zaman ödənilmiş beh ərizəçiyə geri qaytarılacaq: «Elektron hərracın keçirilməsində iştirak etmək hüququ olan iştirakçılar biletdə göstərilən tarixdə və saatda elektron hərracda iştirak etməlidirlər. Yalnız elektron hərracda iştirak etmək hüququ yaranmış iştirakçıların «Şəxsi kabinet»lərində «Hərracda iştirak et» düyməsi aktivləşəcək və iştirakçı həmin düyməni sıxdıqdan sonra elektron hərracda iştirak edə bilər. Elektron hərracda iştirak edən, lakin hərracın qalibi olmayan şəxslərin behi müvafiq qaydalara uyğun olaraq geri qaytarılacaq. Elektron hərracda iştirak üçün müraciət edilmədikdə və ya müraciət etmiş iştirakçılardan heç biri elektron hərracda iştirak etmədikdə, yaxud ilkin qiymət və ya əmlakın növbəti elektron hərracda aşağı salınmış qiyməti elan olunduqdan sonra 48 saat ərzində iştirakçılardan heç biri əmlakın alınmasına dair niyyətlərini bildirmədikdə elektron hərrac baş tutmamış hesab edilir. Elektron hərrac baş tutmadıqda beh iştirakçılara geri qaytarılır».

Elektron hərracın yekunları haqqında məlumat hərracın keçirildiyi gündən 5 təqvim günü müddətində hərracın təşkilatçısı tərəfindən rəsmi internet saytında yerləşdiriləcək. Baş tutmamış elektron hərrac üzrə satılmayan əmlak barədə məlumatlar isə rəsmi internet saytından çıxarılacaq: «Əmlakın satışından əldə edilən məbləğ əvvəlcə tənbeh tədbirinin yönəldilməsi və əmlakın satışı üzrə xərclərin, sonra isə vergilər, faizlər və maliyyə sanksiyaları üzrə dövlət büdcəsinə yaranmış borcların ödənilməsinə yönəldilir. Vəsaitin qalan hissəsi vergi ödəyicisinin yeni borcu yaranmadıqda 3 bank günü ərzində vergi ödəyicisinə qaytarılacaq. Vergi Məcəlləsinin 90.4-cü maddəsinin 2-ci abzasına əsasən, əmlakın satışından daxil olan pul vəsaiti vergilər, faizlər və maliyyə sanksiyaları üzrə dövlət büdcəsinə yaranmış borcların ödənilməsi üçün kifayət etmədikdə və ya əmlak qanunvericilikdə nəzərdə tutulmuş qaydada hərracda satılmadıqda borcların dövlət büdcəsinə ödənilməsini təmin etmək məqsədilə icra məmuru tərəfindən vergi ödəyicisinin həmin borclarının qalan məbləği həcmində digər əmlakı qanunvericilikdə nəzərdə tutulmuş qaydada siyahıya alına bilər».

> Əmlakın satışından əldə edilən məbləğ əvvəlcə tənbeh tədbirinin yönəldilməsi və əmlakın satışı üzrə xərclərin, sonra isə vergilər, faizlər və maliyyə sanksiyaları üzrə dövlət büdcəsinə yaranmış borcların ödənilməsinə yönəldilir




**Aytən NƏBİYEVA**

## RƏQƏMLƏRİN DİLİ İLƏ

**Yanvar-aprel aylarında...**

- Azərbaycanda ümumi daxili məhsul istehsalı **20.139,8 milyon** manat təşkil edib, əhalinin hər nəfərinə düşən ÜDM **2075,5** manata bərabər olub.
- Maliyyə Nazirliyinin təqdim etdiyi operativ məlumatlara əsasən, dövlət büdcəsinin gəlirləri **5021,9 milyon** manat, xərcləri isə **5390,0 milyon** manat təşkil edib.
- Dövlət Statistika Komitəsindən verilən məlumata görə, ölkədə **86,4 min** yeni, o cümlədən **79,6 min** daimi iş yeri açılıb. İş yerlərinin **87,5%** qeyri-dövlət sektorunun payına düşür.
- Əhaliyə göstərilən ödənişli xidmətlərin dəyəri 2016-cı ilin eyni dövrü ilə müqayisədə real ifadədə **0,3%** azalaraq **2425,9 milyon** manat olub.
- Mərkəzi Bankdan bildirilib ki, Azərbaycanda pul bazası may ayının 1-nə **7.628,1 milyon** manat təşkil edib. Bu, ötən ayın əvvəli ilə müqayisədə **350,6 milyon** manat çoxdur.

## İnvestisiya qoyuluşu təşviq edilir

İnvestisiya təşviqi sənədi Vergi Məcəlləsində və «Gömrük tarifi haqqında» Qanunda müəyyən edilmiş güzəştləri əldə etməyə əsas verən sənəddir. Bu güzəştlərə mənfəət və ya gəlir vergisinin 50%-dən azadolma, torpaq və əmlak vergisindən tam azadolma, layihə çərçivəsində xaricdən alınan texnika, texnoloji avadanlıq və qurğunun gömrük rüsumu və ƏDV-dən tam azadolmalar aiddir.

Sənəd 2016-cı il 18 yanvar tarixli prezident fərmanı ilə təsdiq edilmiş «İnvestisiya təşviqi sənədinin verilməsi» Qaydasında göstərilən meyarlara tam cavab verən investisiya layihələrini təqdim etmiş sahibkarlar üçün nəzərdə tutulub. Sənədin verilməsi üçün investisiyanın həyata keçirildiyi iqtisadi fəaliyyət sahəsi, investisiya layihəsinin həcmi ilə bağlı minimal məbləğ, layihənin həyata keçiriləcəyi inzibati ərazi vahidləri kimi meyarlar əsas götürülür.

İqtisadiyyat Nazirliyinin İctimaiyyətlə əlaqələr şöbəsinin baş məsləhətçisi Vüsalə Quliyeva bildirmişdir ki, indiyədək 138 sahibkarlıq subyektinə 148 investisiya təşviqi sənədi, 102 sahibkarlıq subyektinə 109 layihə üzrə 489 təsdiqedici sənəd verilmişdir. İnvestisiya təşviqi sənədi təqdim edilmiş layihələrin reallaşdırılması nəticəsində yerli istehsala 1,4 mlrd. manat investisiya yatırılacaq və 10 mindən çox yeni iş yeri açılacaq.

Təqdim edilmiş investisiya təşviqi sənədlərinin 52-si Bakı şəhəri və Abşeron rayonunun, 96-sı isə digər iqtisadi rayonların payına düşür. 148 sənədin 56-sı kənd təsərrüfatı, 96-sı isə sənaye istiqamətli fəaliyyət sahələri üzrə verilmişdir. Bu layihələrin 46-sı artıq fəaliyyətdədir. Ən çox investisiya təşviqi sənədi təqdim edilmiş layihələr intensiv bağçılıq, bostançılıq və çayçılıq (25,8%), qida məhsullarının istehsalı (23,8%), rezin və plastmas məmulatların istehsalı (6,6%) sahələrinə aiddir.

**FƏXRİYYƏ**

## «Vergilər uşaqların gözü ilə» müsabiqəsinin seçmə mərhələsi keçirilib



Beyləqan şəhərində 8 saylı Ərazi Vergilər İdarəsinin əhatə dairəsinə daxil olan inzibati rayonların şagirdləri arasında 1 İyun - Uşaqları Beynəlxalq Müdafiə Günü»nə həsr olunan «Vergilər uşaqların gözü ilə» rəsm və inşa müsabiqəsinin seçmə mərhələsi keçirilmişdir. Vergilər Nazirliyinin təşəbbüsü və Tofiq İsmayılov adına Uşaq-Gənclər Yaradıcılıq Sarayının iştirakı ilə hər il keçirilən rəsm müsabiqəsi 2 yaş qrupu üzrə (I yaş qrupu - 5-10 yaş, II yaş qrupu - 11-16 yaş), inşa müsabiqəsi 9-16 yaş qrupu üzrə keçirilmişdir. Uşaqlar arasında böyük maraq müsabiqəyə onlarla rəsm və inşa nümunələri təqdim olunmuşdur.

Müsabiqə qaliblərinin müəyyən edilməsi məqsədilə 8 saylı Ərazi Vergilər İdarəsinin rəisi Elçin Kazımovun sədrliyi ilə vergi orqanının, təhsil müəssisələrinin və «Vergi dostları»nın nümayəndələrinin iştirakı ilə komissiya yaradılmışdır. Komissiya tərəfindən müsabiqənin yekun mərhələsində iştirak edəcək qaliblər müəyyən edilmiş, eyni zamanda hər 3 nominasiya üzrə ilk üç yeri tutan uşaqlara diplomlar və qiymətli hədiyyələr təqdim olunmuşdur. Sonra idarənin inzibati binasında müsabiqənin qalibləri və təhsil işçiləri üçün çay süfrəsi təşkil edilmiş, vergilərlə bağlı müxtəlif mövzularda maraqlı söhbətlər aparılmışdır.

## ELAN

ASAN imza sertifikatının qüvvədə olma müddəti 3 il olduğundan və 2014-cü ilin may və növbəti aylarında alınmış sertifikatların etibarlılıq müddəti 2017-cı ilin may və növbəti aylarında bitəcəyindən, ASAN imza sertifikatının yenisini almaq üçün qüvvədə olan ASAN imzanız vasitəsilə www.asxm.gov.az/portal/login portalına daxil olub müvafiq ərizəni, müqaviləni və etibarnamələri imzaladıqdan sonra ASAN imza sim kartını dəyişərək vergi ödəyicilərinə xidmət mərkəzlərinə və ya ASAN xidmət mərkəzlərinə yaxınlaşa bilərsiniz.

ASAN imza ilə əlaqədar əlavə sualınız yaranarsa,
Vergilər Nazirliyinin 195-1 Çağrı Mərkəzinə, rəsmi internet saytının «Sual-cavab» bölməsinə
www.taxes.gov.az/www.taxes/faq/sual.html və www.asxm.gov.az
internet ünvanına müraciət edə bilərsiniz.

Vergilər Nazirliyinin Asan Sertifikat Xidmətləri Mərkəzi

# Pərakəndə ticarət fəaliyyəti və vergitutma

Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 19 aprel tarixli fərmanı ilə «Pərakəndə ticarət fəaliyyəti sahəsində vergitutma məqsədləri üçün gəlirlərin və xərclərin uçotunun aparılması Qaydası» təsdiq edilmişdir.

Vergilər Nazirliyinin Vergi siyasəti və strateji araşdırmalar departamentinin Vergi siyasəti idarəsinin Vergi qanunvericiliyinin təkmilləşdirilməsi şöbəsinin rəhbəri Rəşad Nuriyevin sözlərinə görə, bu sənəd Vergi Məcəlləsinin 130.1-1-ci maddəsinə əsasən hazırlanmışdır. Qaydanın hazırlanmasında məqsəd pərakəndə ticarət sahəsində fəaliyyət göstərən vergi ödəyicilərinin gəlirlərinin və xərclərinin müəyyən edilməsi ilə bağlı malların mədaxilinin və məxaricinin sənədləşdirilməsini, habelə bu sahədə şəffaflığın, uçot və hesabatlılığın artırılmasını təmin etməkdən ibarətdir.

Vergi Məcəlləsinə uyğun olaraq, pərakəndə ticarət sahəsində fəaliyyət göstərən vergi ödəyiciləri vaxtında gəlir və xərclərinin dəqiq uçotunu aparmağa, tətbiq edilən uçot metodundan asılı olaraq gəlirlərini və xərclərini onların əldə edildiyi və ya çəkildiyi müvafiq hesabat dövrlərinə aid etməyə və bu fəaliyyətlə bağlı bütün əməliyyatların başlanmasını, gedişini və başa çatmasını müəyyənləşdirməyə imkan verən uçot aparılmasını təmin etməyə borcludurlar: «Pərakəndə ticarət sahəsində fəaliyyət göstərən vergi ödəyiciləri satın aldıqları malları əlavə dəyər vergisinin (ƏDV-nin) məqsədləri üçün qeydiyyata alınmayan vergi ödəyicilərindən aldıqda, həmin malların alışına dair Vergi Məcəlləsi ilə müəyyən edilmiş qaimə-faktura və ya elektron qaimə-faktura tələb olunur və belə malların anbara təhvil verilməsi «Malların təhvil-qəbul aktı» ilə sənədləşdirilir. Eləcə də pərakəndə ticarət sahəsində fəaliyyət göstərən vergi ödəyiciləri malları ƏDV-nin məqsədləri üçün qeydiyyatda olanlardan aldıqda bu malların alışına dair qaimə-faktura və ya elektron qaimə-faktura ilə yanaşı, elektron vergi hesab-fakturasının da verilməsi tələb edilir və belə malların anbara təhvil verilməsi «Malların təhvil-qəbul aktı» ilə təsdiqlənir».

R.Nuriyev qeyd etmişdir ki, mallar vergi orqanında uçotda olmayan şəxslərdən alındıqda «Malların alış aktı» tərtib edilir: «Malların alış aktı»nda satıcının şəxsiyyətini təsdiq edən sənədin məlumatlarının (FİN, seriyası və nömrəsi) göstərilməsi mütləqdir. Belə malların anbara təhvil verilməsi «Malların təhvil-qəbul aktı» ilə sənədləşdirilir. Vergi ödəyicisi malları təhtəlhesab şəxs vasitəsilə aldıqda təhtəlhesab şəxsə vəkalətnamə (etibarnamə) verir. Malların alışı zamanı təhtəlhesab şəxs satıcıya vəkalətnamə təqdim etdikdən sonra satıcı vəkalətnamə verən vergi ödəyicisinin adına sənədləşdirilmiş malların satışına dair qaimə-fakturanı və ya elektron qaimə-fakturanı, yaxud elektron vergi hesab-fakturasını və ya «Malların alış aktı»nı təhtəlhesab şəxsə təqdim edir. Təhtəlhesab şəxsin malları anbara təhvil verməsi «Malların təhvil-qəbul aktı» ilə, idxal mallarının anbara mədaxili isə alış dəyərini təsdiq edən sənəd və malların anbara təhvil verilməsi ilə bağlı tərtib olunan «Malların təhvil-qəbul aktı» ilə sənədləşdirilir. İdxal malları uçota alınarkən həmin malların idxalına dair gömrük bəyannaməsi, faktura (invoys) və müqavilə əsas götürülür».

Pərakəndə ticarət fəaliyyəti göstərən vergi ödəyicisinə məxsus malların təsərrüfatdaxili hərəkəti (bir anbardan digər anbara, bir ticarət obyektindən digər ticarət obyektinə) «Malların təsərrüfatdaxili yerdəyişməsi qaimə-fakturası» ilə, bu fəaliyyətlə yanaşı, istehsal (o cümlədən kənd təsərrüfatı məhsullarının istehsalı) və topdansatış fəaliyyəti üzrə təsərrüfat subyektləri (obyektləri) mövcud olduqda, həmin təsərrüfat subyektlərindən (obyektlərdən) malların pərakəndə satış fəaliyyətində istifadə üçün götürülməsi və ya qaytarılması «Malların təsərrüfatdaxili yerdəyişməsi qaimə-fakturası» ilə sənədləşdirilir.

Vergi ödəyicisinə məxsus anbarlar və ya təsərrüfat subyektləri (obyektlər) pərakəndə ticarət fəaliyyəti həyata keçirilən təsərrüfat subyektinin (obyektin) hüdudlarından kənarda yerləşdikdə və malların daşınması nəqliyyat vasitəsilə həyata keçirildikdə həmin nəqliyyat vasitəsinə, əlavə olaraq, «Yük avtonəqliyyatı üçün yol vərəqi» verilir.

Pərakəndə ticarət fəaliyyəti göstərən təsərrüfat subyektlərində (obyektlərdə) malların təqdim edilməsi (satışı) nəzarət-kassa aparatı və POS-terminal tətbiq edilməklə həyata keçirilir. Belə təsərrüfat subyektlərində (obyektlərdə) malların təqdim edilməsi (satışı) zamanı alıcıya (istehlakçıya) nəzarət-kassa aparatının çeki (sahibkarlıq fəaliyyətini həyata keçirən hüquqi və fiziki şəxslərin tələbi ilə qaimə-faktura və ya elektron qaimə-faktura və ya elektron vergi hesab-fakturası) verilir. Malların dəyəri nağdsız qaydada (POS-terminal vasitəsilə) ödənildikdə, alıcıya (istehlakçıya) nəzarət-kassa aparatının çeki (sahibkarlıq fəaliyyətini həyata keçirən hüquqi və fiziki şəxslərin tələbi ilə qaimə-faktura və ya elektron qaimə-faktura, yaxud elektron vergi hesab-fakturası) ilə yanaşı, POS-terminaldan çıxarış verilir.

**Fəxriyyə İKRAMQIZI**

Dövlət Statistika Komitəsindən verilən məlumata görə, bu ilin yanvar-aprel aylarında Azərbaycanın pərakəndə ticarət şəbəkəsində satılmış məhsulların ümumi dəyəri əvvəlki ilin eyni dövrünün səviyyəsini müqayisəli qiymətlərlə 1,7% üstələyərək 10,2 milyard manata bərabər olub.

Ticarət dövriyyəsinin 50,6%-ni ərzaq məhsulları, içkilər və tütün məmulatları, 49,4%-ni qeyri-ərzaq məhsulları təşkil edib və satılmış məhsulların dəyəri 2016-cı ilin yanvar-aprel aylarının göstəricilərini real ifadədə müvafiq olaraq 0,6% və 2,7% üstələyib.

İlin ilk dörd ayı ərzində istehlakçıların pərakəndə ticarət şəbəkəsində xərclədiyi vəsaitin 45,2%-i ərzaq məhsulları, 5,4%-i içkilər və tütün məmulatları, 17,7%-i toxuculuq məhsulları, geyim və ayaqqabı, 6,4%-i elektrik malları və mebel, 4,9%-i avtomobil yanacağı, 1,3%-i əczaçılıq və tibbi mallar, 0,8%-i kompüter, telekommunikasiya avadanlıqları və çap məhsulları, 18,3%-i isə digər qeyri-ərzaq məhsullarının alınmasına sərf olunub.

Bu ilin yanvar-aprel aylarında istehlak məhsullarının 11,4%-i hüquqi şəxs statuslu müəssisələr, 53,5%-i fərdi sahibkarlar tərəfindən, 35,1%-i isə bazar və yarmarkalarda satılıb. 2016-cı ilin eyni dövrü ilə müqayisədə pərakəndə ticarət dövriyyəsi real ifadədə hüquqi şəxslər üzrə 2,7%, fərdi sahibkarlar üzrə 2,5% artıb, bazar və yarmarkalar üzrə isə sabit qalıb.

Əhalinin hər nəfərinə düşən orta aylıq pərakəndə ticarət dövriyyəsi 263,5 manat və ya 2016-cı ilin müvafiq dövrünün göstəricisindən nominal ifadədə 36,0 manat və ya 15,8% çox olub. Ticarət şəbəkəsində bir ölkə sakini orta hesabla hər ay 133,2 manatlıq ərzaq məhsulları, içkilər və tütün məmulatları, 130,3 manatlıq qeyri-ərzaq məhsulları alıb.

# Sahibkarlarımız üçün xarici ölkələrdə biznes mərkəzləri

İqtisadiyyat Nazirliyi 2017-ci ildə bir sıra xarici ölkə bazarlarında ixracatçıların iqtisadi və ticarət maraqlarının daha dolğun qorunması və təmsil edilməsi məqsədilə ticarət evləri və nümayəndəlikləri, biznes və logistika mərkəzləri yaradacaq. Artıq Azərbaycanın qeyri-neft məhsulları üzrə əsas ticarət tərəfdaşlarından olan Rusiya və Belarusda ticarət evləri yaradılmaqdadır, Ukraynada isə bununla bağlı işlər aparılır. İqtisadiyyat nazirinin müavini Sahil Babayev bildirib ki, Azərbaycan məhsullarının əsas alıcısı olan və bu sahədə partnyor hesab edilən digər ölkələrdə də ticarət evlərinin yaradılması nəzərdən keçirilir.



İxrac siyasətinə uyğun olaraq, biznes mərkəzlərinin yaradılması ilə bağlı layihələrin icrası davam etdirilir. Həştərxanda Azərbaycanın ilk biznes mərkəzinin yaradılması tamamlanmaq üzrədir. Ötən ilin sonlarında əsası qoyulan 5 min kvadratmetrdən ibarət beşmərtəbəli mərkəzdə sərgi və konfrans zalları, ofis otaqları, ticarət obyektləri, mini otel, fitnes zal və restoranlar yerləşəcək. Yaradılan şərait işgüzar görüşlərin və müzakirələrin aparılmasına imkan verəcək. Biznes mərkəzində azərbaycanlı və rus sahibkarların birgə biznes forumlarının keçirilməsi, yeni layihələrin icracına başlamaq üçün niyyət razılaşmalarının imzalanması və digər perspektiv əməkdaşlıq məsələlərinin həlli nəzərdə tutulur. Həştərxan vilayətinin qubernatoru Aleksandr Jilkin deyib ki, mərkəz regionda Azərbaycanın iqtisadi imkanlarının nümayiş etdirilməsi, ixracla məşğul olan sahibkarların qarşılıqlı partnyorlar tapması və ixrac missiyasının təqdimi baxımından mühüm rol oynayacaq, həmçinin məhsulların satışı həyata keçiriləcək.

İxrac imkanlarının genişləndirilməsi məqsədilə logistika mərkəzlərinin yaradılması da aparılan işlər sırasında başlıca yer turur. Bu tip mərkəzlər ilkin olaraq Xəzər regionu ölkələrində qurulacaq. Artıq Qazaxıstanın Aktau şəhərində ilk müasir logistika mərkəzi yaradılıb. Mərkəzin işinin təkmilləşdirilməsini və partnyorluğun gücləndirilməsini təşviq etmək məqsədilə burada xüsusi gömrük rejiminin tətbiq edilməsi nəzərdə tutulur. Başqa ölkələrdə də kənd təsərrüfatı və digər qida məhsullarının saxlanmasını və satışını təmin edəcək logistik mərkəzlərin yaradılması istiqamətində işlər aparılır. Bunlardan əlavə, Azərbaycanın özünün qonşu ölkələrlə sərhəd ərazilərində logistika mərkəzləri yaradılacaq. Bu məqsədlə Bakı Beynəlxalq Dəniz Ticarət Limanında ölkənin daxili ticarət şəbəkəsinə çevik inteqrasiyasını təmin etməkdən ötrü avtomobil və dəmir yolu əlaqələri gücləndiriləcək. Logistika şəbəkəsinin digər regionlarda da genişləndirilməsi davam etdiriləcək.

İxrac siyasətində mühüm yer tutan məsələlərdən biri də xarici ölkələrdə azərbaycanlı iş adamlarının ictimai birliklərinin yaradılmasıdır. Artıq Türkiyədə və Gürcüstanda bu cür qurumlar yaradılıb. MDB və yaxın region ölkələri ilə də bu istiqamətdə intensiv işlər aparılır.

S.Babayev bildirib ki, xarici ölkələrdə biznes mərkəzlərinin və ixracı təşviq edən digər qurumların yaradılması milli sahibkarların ixraca olan marağının, eləcə də ixrac olunan qeyri-neft məhsullarının çeşidlərinin artması, ixrac coğrafiyasının genişlənməsi, Azərbaycanın biznes mühitinin təşviqi və xarici şirkətlərin investisiyalarının ölkəmizə cəlb olunması, xarici bazarlarda analoji məhsullarla rəqabət qabiliyyətinin yüksəldilməsi və iqtisadi maraqlarımızın qorunması üzrə görülən işlərin səmərəliliyi baxımından əhəmiyyət daşıyır.

**ELBRUS**

# Əmək müqavilələri vergitutma bazasının genişləndirilməsinə xidmət edir

***Azərbaycan Prezidenti İlham Əliyev dəfələrlə vurğulamışdır ki, iqtisadiyyatın müxtəlif sektorlarında çalışanların bir qisminin qeyri-qanuni işləməsi, müəssisələrdə işçilərin adı olub özünün olmaması, rəhbər vəzifəli şəxslərin müxtəlif qanunsuz yollarla öz qazanclarını artırması və s. neqativ hallar vergidən yayınmaya, ölkənin bugünkü sosial vəziyyətinin real əks etdirilməməsinə səbəb olur. İşçi qəbulu zamanı əmək müqaviləsinin bağlanmaması və bu məsələdə gizli razılaşmaların olması nəticə etibarilə gəlir vergisinin və sosial ödənişlərin yerinə yetirilməməsi ilə yanaşı, vətəndaşların hüquqlarının kobud şəkildə pozulmasına gətirib çıxarır, həmçinin dövlət büdcəsinə külli miqdarda ziyan vurur.***

Vergitutma bazasının genişləndirilməsi ilə bağlı vergi orqanlarının üzərinə konkret vəzifələr qoyulmuşdur. Tapşırıqların icrası, vergidən yayınma hallarının, əlavə vergi potensialının müəyyən edilməsi, işçi sayının və iş yerlərinin düzgün rəsmiləşdirilməsinin təmin olunması məqsədilə vergilər nazirinin əmri ilə «İşəgötürənlər tərəfindən iş yerlərinin rəsmiləşdirilməməsi hallarının qarşısının alınması istiqamətində görüləcək işlərə dair» Tədbirlər Planı təsdiq olunmuşdur. Planda nəzarət tədbirləri ilə yanaşı, maarifləndirmə və məlumatlandırma işlərinə daha çox yer verilməsi vacib hesab edilir.




Nazirlik tərəfindən «Vergi ödəyicilərinə göstərilən xidmətlər - məlumatlandırma, maarifləndirmə və təbliğat işində sahibkarların ictimai təşkilatlarının və KİV-in rolunun artırılması» adlı layihə hazırlanmış, layihə çərçivəsində sahibkarların ictimai təşkilatları və KİV nümayəndələrinin iştirakı ilə müxtəlif tədbirlər keçirilmişdir. Vergi ödəyicilərinin istənilən vaxt, istənilən yerdən, istənilən növ informasiya əldə etmək imkanı yaratmaq günün mühüm məsələlərindəndir və Vergilər Nazirliyi bu məqsədlə mövcud məlumat mənbələrindən intensiv istifadə edir. «195» Çağrı Mərkəzi, taxes.gov.az veb saytı, vergi ödəyicilərinə xidmət mərkəzləri, lVergi dostları» şəbəkəsi, sosial media nazirliklə vergi ödəyiciləri arasında əlaqələndirici rolunu oynayır. Böyük auditoriyaya malik «Facebook» və «Twitter» sosial şəbəkələrində, «Youtube» və «Video.az» video hostinqdə Vergilər Nazirliyinin səhifələri yaradılmışdır və bu resurslar üzərindən istifadəçilər arasında mütəmadi təbliğat işləri aparılır. Vergi ödəyicilərinə mesaj xidməti vasitəsilə aşağıdakı xidmətlər göstərilir:

- Vergi ödəyicilərinə məlumatların və xatırlatmaların səsli mesajla göndərilməsi;
- Vergi ödəyicilərinə məlumatların və xatırlatmaların ünvanlı şəkildə SMS vasitəsilə göndərilməsi;
- İkitərəfli SMS xidmətinin abunəçilərinə xatırlatmaların mütəmadi göndərilməsi və abunə olmadan qeydiyyatdan keçmiş vergi ödəyicilərinin SMS sorğularının cavablandırılması.

Artıq təbliğat işləri öz bəhrəsini verir və vergi ödəyiciləri özləri əmək müqavilələrinin bağlanmasında maraqlı tərəf kimi çıxış etməyə başlamışlar. Əmək müqaviləsi ilə işləyən hər bir vətəndaş «Elektron hökumət portalı»nda şəxsi kabinetini yaratmaqla işlədiyi illər ərzində ödənilmiş vergi və sosial sığorta haqları barədə məlumat əldə edə bilir.

Azərbaycan hökumətinin həyata keçirdiyi stimullaşdırıcı tədbirlərdən ən vacibi Vergi Məcəlləsində edilmiş əlavə və dəyişikliklərlə bağlıdır. Məcəlləyə dəyişikliklər əmək müqavilələrinin sayının artmasına təkan vermişdir. Hazırda fiziki şəxslərin gəlirindən, Vergi Məcəlləsinin 101.1-ci maddəsinə əsasən, aylıq gəlir 2500 manata qədər olduqda 14%, 2500 manatdan yuxarı olan hissəsinin 25%-i miqdarında vergi tutulur. Əməkhaqqı 2500 manata qədər olduqda əməkhaqqından ölkə üzrə yaşayış minimumu (2017-ci ildən 155 manat müəyyən olunmuşdur) çıxıldıqdan sonra qalan məbləğdən 14% gəlir vergisi tutulur. İki və ya daha çox yerdə muzdla işləyən fiziki şəxslərin gəlirlərindən gəlir vergisi hər bir iş yerində ödənilən məbləğdən ayrıca hesablanır və dövlət büdcəsinə ödənilir. Milli qəhrəmanların, müharibə əlillərinin, müharibə veteranı adı almış şəxslərin vergi tutulmalı olan aylıq gəliri 400 manat məbləğində, I və II qrup əlillərin (müharibə əlillərindən başqa), sağlamlıq imkanları məhdud 18 yaşınadək vətəndaşların hər hansı muzdlu işdən vergi tutulmalı olan aylıq gəliri 200 manat məbləğində azaldılır. Məcburi köçkünlər və onlara bərəbər tutulan şəxslərin vergi tutulmalı olan aylıq gəliri 100 manat məbləğində azaldılır. Himayəsində azı üç nəfər, o cümlədən gündüz təhsil alan 23 yaşınadək şagirdlər və ya tələbələr olan ər və ya arvaddan birinin vergi tutulmalı olan aylıq gəliri 50 manat məbləğində azaldılır.

Vergilər Nazirliyi vergi ödəyicilərini ödənişləri yerinə yetirməyə və əmək müqavilələrinin bağlanmasına təkcə cərimələrlə, inzibati yollarla yox, daha çox məlumatlandırma, maarifləndirmə metodlarından istifadə olunmaqla səmərəli iqtisadi mexanizmlər vasitəsilə sövq etməyə üstünlük verir

Fiziki şəxslərin gəlir vergisi üzrə güzəştlər 500 mindən çox insanı əhatə etməklə, iş yerlərində əmək haqlarının şəffaflaşmasına da mühüm təsir göstərir. Hazırda əmək bazarındakı vəziyyət ciddi təhlil olunur, perspektiv inkişaf üçün vergi baxımından hansı addımların atılması müəyyənləşdirilir. Vergilər Nazirliyi vergi ödəyicilərini ödənişləri yerinə yetirməyə və əmək müqavilələrinin bağlanmasına təkcə cərimələrlə, inzibati yollarla yox, daha çox məlumatlandırma, maarifləndirmə metodlarından istifadə olunmaqla səmərəli iqtisadi mexanizmlər vasitəsilə sövq etməyə üstünlük verir. Məqsəd əmək bazarını daha da canlandırmaq, işçilərin sosial hüquqlarını qorumaq, vergi və digər ödənişlərin həyata keçirilməsinə, bu ödənişlər hesabına dövlət büdcəsinin artımına nail olmaqdır.

**Rəşad SADIQOV**

# Birinci rübün iqtisadi-monetar mənzərəsi

## Mərkəzi Bankın «Pul siyasəti» icmalının növbəti buraxılışı bu ilin ilk rübünün göstəricilərini əks etdirir

2017-ci ilin ilk üç ayında qlobal iqtisadi konyunkturda Azərbaycan iqtisadiyyatı üçün əlverişli meyillər müşahidə olunmuşdur. Dünya neft bazarında qiymətlərin nisbətən artması və tərəfdaş ölkələrdə iqtisadi aktivliyin yüksəlməsi tədiyyə balansına müsbət təsir edən mühüm amillərdən olmuşdur. Bu şəraitdə ölkəmizin pul siyasətinin strateji çərçivəsinin təkmilləşdirilməsi istiqamətində də işlər davam etdirilmişdir. Yeni valyuta hərracı mexanizmi tətbiq olunmağa başlamış, xarici valyutanın nağd və qeyri-nağd satış məzənnəsinə rəsmi məzənnəyə nəzərən qoyulmuş limit aradan götürülmüşdür. Ümumilikdə, həyata keçirilən tədbirlər və tədiyyə balansının yaxşılaşması nəticəsində 2017-ci ilin ilk rübündə makroiqtisadi sabitliyin təmin olunması istiqamətində ilkin müsbət təmayüllər formalaşmağa başlamışdır. Rübün sonuna doğru makroiqtisadi sabitlik çərçivəsində pul təklifinin artırılmasına da şərait yaranmışdır.

***İqtisadi artım***

Dövlət Statistika Komitəsinin (DSK) məlumatına əsasən, 2017-ci ilin ilk rübü ərzində ümumi daxili məhsul (ÜDM) nominal olaraq 15,2 milyard manat təşkil etmişdir. ÜDM-in əhalinin hər nəfərinə düşən həcmi isə 1570 manat olmuşdur. Mədənçıxarma sənayesində 9,5 milyon ton əmtəəlik xam neft, 4,8 milyon kubmetr təbii qaz hasil edilmişdir. Neft hasilatı 9,9% azalmış, qaz hasilatı isə 0,9% artmışdır. Qeyri-neft sektorunda rüb ərzində yaradılan əlavə dəyər ötən ilin müvafiq dövrünə nəzərən 2,4% artaraq 8,6 milyard manat təşkil etmiş, onun ÜDM-də xüsusi çəkisi 56,2% olmuşdur. Hesabat dövründə qeyri-neft sektorunun bütün sahələri üzrə artım qeydə alınmışdır. Dövr ərzində qeyri-neft sənayesində 2% artım olmuşdur. D1

***Məşğulluq***

Hesabat dövrünün sonuna ölkədə iqtisadi fəal əhalinin sayı 5 milyon 18,2 min nəfər təşkil etmişdir. Əmək fəaliyyəti ilə məşğul olan əhalinin sayı 80 min nəfər artmış və iqtisadi fəal əhalinin sayında 95% artım müşahidə edilmişdir. DSK-nın məlumatına görə, muzdla çalışan işçilərin sayı 2017-ci ilin 1 mart tarixinə ötən ilin müvafiq dövrü ilə müqayisədə 1,4% artaraq 1 milyon 515,7 min nəfər təşkil etmişdir. Müəssisə və təşkilatlarda muzdla çalışan işçilərin 22,2%-i məhsul istehsalı sahələrində, o cümlədən 6,1%-i tikinti, 6,8%-i emal sənayesi, 2,3%-i mədənçıxarma sənayesi, 3,1%-i isə kənd təsərrüfatında fəaliyyət göstərmişlər. D2

***İnflyasiya***

Qiymətlərin ümumi səviyyəsinin aylıq artım tempi azalma meyilli olmuşdur. DSK-nın məlumatına əsasən, 2017-ci ilin ilk rübündə orta illik inflyasiya 13,2% təşkil etmişdir. İnflyasiyanın 7,2% bəndi ərzaq, 3,3% bəndi qeyri-ərzaq, 2,7% bəndi isə xidmətlərin payına düşür.

Aylıq inflyasiya azalma tendensiyası nümayiş etdirmişdir. Fevral və mart aylarında inflyasiya (1,6%) yanvar ayına (2,3%) nisbətən bir qədər səngimişdir. Mart ayı ərzində regionlar üzrə aylıq inflyasiya ölkə üzrə aylıq inflyasiyaya yaxın olmuşdur. İstehlak səbətində qiyməti artan və azalan məhsul və xidmətlərin sayındakı fərqin dəyişim dinamikasını göstərən diffuziya indeksi də aylar üzrə düşmə istiqamətində olmuşdur. Ümumilikdə, dövr ərzində 521 adda mal və xidmətdən 6-nın qiyməti azalmış, 55-nin qiyməti isə dəyişməz qalmışdır. Qiymətlərin ümumi səviyyəsinin orta illik dövr ərzində dəyişiminə nominal effektiv məzənnə, inflyasiya gözləntiləri, dünya əmtəə qiymətlərinin dəyişimi, partnyor ölkələrdə gedən inflyasiya prosesləri, qiymətlərin dövlət tənzimlənməsi, habelə məcmu tələbin dəyişimi təsir göstərmişdir. Qiymətləri dövlət tərəfindən tənzimlənən məhsullar və xidmətlər, həmçinin mövsümi xarakter daşıyan kənd təsərrüfatı məhsulları nəzərə alınmadan hesablanan orta illik baza inflyasiya 2017-ci ilin yanvar-mart aylarında 12,6% təşkil etmişdir. D2




***Pul təklifi***

İlin ilk rübündə inflyasiya amillərini nəzərə alaraq pul bazasının artım kanalları idarəetməyə götürülmüş, pul bazası pul siyasətinin başlıca əməliyyat lövbəri olmuşdur. Hesabat dövründə manatla pul bazası 7,4% azalmış və rübün sonuna 7 milyard 277,5 milyon manat təşkil etmişdir. Pul bazasının azalmasının komponentlərini təşkil edən dövriyyədəki nağd pul kütləsi 4,3%, manatla müxbir hesablar isə 32,8% azalmışdır. Manatla pul bazası ilin əvvəlinə nəzərən pul kütləsinə nisbətdə daha çox azalmışdır. İcmalda bu, bank sisteminin pul yaratmaq qabiliyyətini ifadə edən pul multiplikatorunun artması ilə izah edilir. Yanvar-mart ayları üzrə manatla pul multiplikatoru 2,7% yüksələrək 1,51-ə çatmışdır.

**AYTƏN**

# İctimai iaşə fəaliyyəti üzrə sənədləşdirmə

Mövcud qanunvericiliyə əsasən, ictimai iaşə müəssisələrində xidmət normativ-hüquqi aktların və sənədlərin tələblərinə uyğun təşkil edilməli, ictimai iaşə fəaliyyəti ilə məşğul olan vergi ödəyiciləri gəlir və xərclərinin müəyyən edilməsi ilə bağlı malların mədaxilini və məxaricini sənədləşdirməlidirlər.

Vergilər Nazirliyinin Vergi siyasəti və strateji araşdırmalar departamentinin baş direktorunun müavini Nicat İmanov qeyd etmişdir ki, ictimai iaşə sahəsində malların mədaxilinin sənədləşdirilməsi qaydaları Vergi Məcəlləsinin 3-cü maddəsində verilmişdir. Məcəllənin 3.1. maddəsinə əsasən, ictimai iaşə sahəsində fəaliyyət göstərən vergi ödəyicilərinin bu fəaliyyəti həyata keçirməsi üçün vergi orqanlarında uçotda olan şəxslərdən, o cümlədən istehsalçılardan, topdansatış və pərakəndə satış fəaliyyəti göstərən şəxslərdən satın alınan mallar aşağıdakı qaydada sənədləşdirilir:

- ictimai iaşə sahəsində fəaliyyət göstərən vergi ödəyiciləri malları əlavə dəyər vergisinin (ƏDV-nin) məqsədləri üçün qeydiyyata alınmayan vergi ödəyicilərindən aldıqda, bu malların alışına dair Vergi Məcəlləsi ilə müəyyən edilmiş qaimə-faktura və ya elektron qaimə-faktura tələb edilir və belə malların anbara təhvil verilməsi «Malların təhvil-qəbul aktı» ilə sənədləşdirilir;
- ictimai iaşə sahəsində fəaliyyət göstərən vergi ödəyiciləri malları (işləri, xidmətləri) ƏDV-nin məqsədləri üçün qeydiyyata alınmış vergi ödəyicilərindən aldıqda, bu malların alışına dair qaimə-faktura və ya elektron qaimə-faktura ilə yanaşı, elektron vergi hesab-fakturasının da verilməsi tələb edilir və belə malların anbara təhvil verilməsi «Malların təhvil-qəbul aktı» ilə sənədləşdirilir.

Qeyd edilmişdir ki, mallar vergi orqanında uçotda olmayan şəxslərdən alındıqda «Malların alış aktı» tərtib edilir və burada satıcının şəxsiyyətini təsdiq edən sənədin məlumatlarının (FİN, seriyası və nömrəsi) göstərilməsi mütləqdir. Belə malların anbara təhvil verilməsi «Malların təhvil-qəbul aktı» ilə sənədləşdirilir. Vergi ödəyicisi malları təhtəlhesab şəxs vasitəsilə aldıqda ona vəkalətnamə (etibarnamə) verir. Malların alışı zamanı təhtəlhesab şəxs satıcıya vəkalətnamə (etibarnamə) təqdim etdikdən sonra satıcı vəkalətnamə (etibarnamə) verən vergi ödəyicisinin adına sənədləşdirilmiş malların satışına dair qaimə-fakturanı və ya elektron qaiməni, yaxud elektron vergi hesab-fakturasını və ya «Malların alış aktı»nı təhtəlhesab şəxsə təqdim edir. Təhtəlhesab şəxsin malları anbara təhvil verməsi «Malların təhvil-qəbul aktı» ilə sənədləşdirilir.

Məcəllənin 3.4-cü maddəsinə görə, idxal mallarının anbara mədaxili alış dəyərini təsdiq edən sənəd və malların anbara təhvil verilməsi ilə bağlı tərtib olunan «Malların təhvil-qəbul aktı» ilə sənədləşdirilir. İdxal malları uçota alınarkən həmin malların idxalına dair gömrük bəyannamələri, faktura (invoys) və malların satın alınmasına dair müqavilə əsas götürülür. Həmin sənədlərə idxal mallarının daşınmasına dair müqavilə, gömrük təmsilçiliyi birbaşa, yaxud dolayı yolla həyata keçirildikdə - müvafiq səlahiyyətin verilməsini təsdiq edən sənəd, əmtəə-nəqliyyat qaiməsi, gömrük ödənişlərinin ödənilməsini və ya gömrük borcuna görə təminatın verilməsini təsdiq edən sənədlər əlavə edilir. İdxal malları uçot sənədlərində qeydiyyata alınarkən həmin malların alış qiymətinin (faktura qiyməti), nəqliyyat xərclərinin, malların yüklənmə, boşaldılma, yenidən yüklənmə xərclərinin və sığorta xərclərinin cəmi nəzərə alınır.

N.İmanov əlavə etmişdir ki, ictimai iaşə fəaliyyəti göstərən vergi ödəyicisinə məxsus malların təsərrüfatdaxili hərəkəti (anbardan-anbara) «Malların təsərrüfatdaxili yerdəyişməsi qaimə-fakturası» ilə sənədləşdirilir. İctimai iaşə fəaliyyəti göstərən vergi ödəyicisinin bu fəaliyyətlə yanaşı, istehsal, topdan və ya pərakəndə satış fəaliyyəti üzrə təsərrüfat subyektləri (obyektləri) mövcud olduqda, həmin təsərrüfat subyektlərindən (obyektlərdən) malların (hazır məhsulların) ictimai iaşə fəaliyyətində istifadə üçün götürülməsi və ya qaytarılması «Malların təsərrüfatdaxili yerdəyişməsi qaimə-fakturası» ilə sənədləşdirilir.

Vergi Məcəlləsinin 3.6. maddəsinə əsasən, vergi ödəyicisinə məxsus anbarlar və ya təsərrüfat subyektləri (obyektlər) ictimai iaşə fəaliyyəti üzrə təsərrüfat subyektinin (obyektin) hüdudlarından kənarda yerləşdikdə və malların daşınması nəqliyyat vasitəsilə həyata keçirildikdə, həmin nəqliyyat vasitəsinə, əlavə olaraq, «Yük avtonəqliyyatı üçün yol vərəqi» verilir.

N.İmanovun sözlərinə görə, ictimai iaşə fəaliyyəti göstərən vergi ödəyicisi malları mərasimlərin təşkili ilə bağlı həmin mərasimlərin təşkilatçılarına malların istifadə edilməyən hissəsinin sonradan geri qaytarılmasını nəzərdə tutan müqavilə əsasında təqdim etdikdə, istifadə olunmayan mallar müqavilə şərtlərinə uyğun olaraq geri qaytarıldığı zaman vergi ödəyicisi onları anbara və ya malların saxlandığı digər təsərrüfat subyektlərinə (obyektlərə) mədaxil edir və malların mərasimlərin təşkilatçılarına təqdim edilməsi 3.7. maddənin 3.1-ci bəndində nəzərdə tutulmuş sənədlərlə, malların istifadə edilməmiş hissəsinin geri qaytarılması isə tərəflər arasında imzalanmış «Malların qaytarılması aktı» ilə sənədləşdirilir: Məcəllənin 3.8-ci maddəsinə görə, ictimai iaşə fəaliyyəti göstərən vergi ödəyicisi malları malgöndərənlərlə bağlanmış müqavilələrə uyğun olaraq «Alış sifarişi» (Purchase order) təqdim etməklə aldıqda, həmin malların sənədləşdirilməsi bu Qaydanın 3.1-ci və 3.4-cü bəndlərində nəzərdə tutulmuş qaydada həyata keçirilir. Malların anbara mədaxilinin uçotu məsul şəxslər, malların adları (növləri, partiyaları və s.), miqdarı və ya digər kəmiyyət göstəriciləri və saxlanma yerləri üzrə aparılır.

> İctimai iaşə fəaliyyəti ilə məşğul olan vergi ödəyiciləri gəlir və xərclərinin müəyyən edilməsi ilə bağlı malların mədaxilini və məxaricini sənədləşdirməlidirlər

**Fəxriyyə İKRAMQIZI**

# Azərbaycanda «Sosial iş» modeli tətbiq olunacaq

**Ölkəmizdə sosial xidmətlərin qabaqcıl Avropa təcrübəsinə uyğun təkmilləşdirilməsi üçün Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyində Avropa İttifaqının (Aİ) dəstəyi və Avstriya Respublikasının aidiyyəti qurumları ilə əməkdaşlıq şəraitində «Sosial xidmətin inkişafı Strategiyası» layihəsi hazırlanıb.**

Nazirlikdən verilən məlumata görə, son illər sosial xidmətlər sisteminin qabaqcıl dünya təcrübəsinə uyğun qurulması əsas hədəflərdən biri kimi müəyyən olunub. Bu sahədə «Sosial xidmətin inkişafı» tvinninq layihəsi xüsusi önəm kəsb edib. Sosial xidmətlərlə təminatın Aİ-nin ən yaxşı təcrübələrinə uyğun qurulması üçün strateji çərçivənin yaradılması, bu sənədə əsasən mövcud qanunvericilikdə dəyişiklikləri nəzərdə tutan sənəd layihələrinin hazırlanması layihənin əsas komponentlərindəndir. Layihədə sosial xidmətlər sisteminin Aİ-nin ən mütərəqqi təcrübələri əsasında modernləşdirilməsi, bu sahədə insan resurslarının inkişafı da xüsusi yer tutur.

Layihə çərçivəsində ölkəmizdə sosial xidmətlərdə yeni «Sosial iş» modelinin tətbiqi nəzərdə tutulub və həmin model üzrə vəzifə təlimatı hazırlanıb. «Sosial iş» modeli sosial müdafiəyə ehtiyacı olan şəxslərə ilkin sosial xidmətlər göstərilməklə onların problemlərinin həlli istiqamətində dəqiq qərar qəbul edilməsinə, bu xidmətlərin onlar üçün əlçatan səviyyədə qurulmasına, həmin insanların sosial və psixoloji ehtiyaclarının müəyyən edilərək aradan qaldırılmasına istiqamətlənib. Sosial xidmətə ehtiyacı olan şəxslərin əhatə dairəsi kifayət qədər genişdir: əlilliyi olan şəxslər, sağlamlıq imkanları məhdud uşaqlar, sosial təhlükəli vəziyyətdə olan yetkinlik yaşına çatmayan şəxslər, ahıllar, aztəminatlı ailələr, məişət zorakılığına məruz qalmış şəxslər, insan alverinin qurbanı olan şəxslər, penitensiar müəssisələrdə cəza çəkməkdən azad edilmiş şəxslər və başqaları bu siyahıya daxildir.

«Sosial iş» modelinin tətbiqi ilə əlaqədar 4 pilot ərazi (Xəzər, Lənkəran, Xaçmaz rayonları və Gəncə şəhəri) seçilib. Həmin rayonlarda sosial xidmətlərin göstərilməsi üzrə işçi qrup, inzibati vəzifə tutan əməkdaşlar, qeyri-hökumət təşkilatlarının nümayəndələri, ali təhsil müəssisələrinin aidiyyəti sahə üzrə müəllim heyəti üçün tvinninq layihəsi çərçivəsində təlimlər keçilib.

# Daşınmaz əmlakın qeydiyyatı təkmilləşdirilir

Daşınmaz əmlakın qeydiyyatı ilə bağlı göstərilən xidmətlərin tarifləri və rüsumları barədə məlumatı Əmlak Məsələləri Dövlət Komitəsinin rəsmi informasiya portalından almaq mümkündür. Bununla yanaşı, Daşınmaz Əmlakın Dövlət Reyestri Xidmətinin ərazi idarələrinin və rayon şöbələrinin inzibati binalarında görünən yerdə dövlət rüsumu və xidmət haqqı ilə bağlı müvafiq məlumat lövhələri də yerləşdirilmişdir. Burada tələb olunan ödənişlər barədə məlumat əks olunub.

Dövlət rüsumu və xidmət haqqı daşınmaz əmlak üzərində hüquqların dövlət qeydiyyatına alınmasını təsdiq edən çıxarışların v, daşınmaz əmlaka dair texniki sənədlərin verilməsi, ipotekanın təkrar və əlavə qeydiyyatı, ipoteka predmetinə tutmanın yönəldilməsi barədə bildirişin dövlət qeydiyyatına alınması, daşınmaz əmlakın yüklülüyünə dair arayışın (Forma 1) təqdim edilməsi və digər xidmətlərə və hüquqi hərəkətlərə görə ödənilir.

Dövlət rüsumu və xidmət haqlarının alınması nağdsız qaydada həyata keçirilir. Qanunvericilikdə nəzərdə tutulmuş dövlət rüsumu və xidmət haqları Hökumət Ödəniş Portalı, ödəniş terminalları və ya onlayn əlaqə vasitəsilə aparılır. Xidmət haqqının alınması zəruriliyi Daşınmaz Əmlakın Dövlət Reyestri Xidmətinin ərazi idarələrinin özünümaliyyələşdirmə prinsipi əsasında fəaliyyət göstərməsi və həmin xidmət haqqından daxil olan vəsait hesabına öz fəaliyyətlərini maliyyələşdirməsi ilə bağlıdır.

«Dövlət rüsumu haqqında» Qanunun 26.1.1-ci maddəsinə əsasən, daşınmaz əmlak üzərində mülkiyyət hüququnun dövlət qeydiyyatına alınması barədə çıxarışın verilməsi üçün 30 manat, 26.1.2-ci maddəsinə əsasən, texniki sənədlərin (pasport və plan-ölçü) verilməsi üçün 50 manat, 26.4-cü maddəsinə görə isə ipotekanın təkrar və əlavə qeydiyyatı üçün 10 manat məbləğində rüsum ödənilir. Daha çox istifadə olunan xidmətlərdən biri də daşınmaz əmlakın yüklülüyünə dair arayışın (Forma1) verilməsidir. Daşınmaz Əmlakın Dövlət Reyestri Xidmətinin ərazi idarələri tərəfindən daşınmaz əmlak üzərində hüquqların məhdudlaşdırılmasına (yüklülüyünə) dair arayışın verilməsi müvafiq qaydalara riayət edilməklə həyata keçirilir. Bu Qanunun 26.6-cı maddəsinə müvafiq olaraq, daşınmaz əmlak üzərində hüquqların məhdudlaşdırılmasına dair dövlət reyestrindən arayışın verilməsinə görə dövlət rüsumu 10 manat məbləğində müəyyən olunmuşdur. Komitə tərəfindən daşınmaz əmlakın yüklülüyünə dair arayışın (Forma 1) verilməsi onlayn qaydada da həyata keçirilir. Eyni zamanda, daşınmaz əmlak üzərində hüquqların dövlət qeydiyyatına alınması, habelə daşınmaz əmlakın yüklülüyünə dair arayışın verilməsi zamanı daşınmaz əmlakın dövlət reyestrində məlumatların yoxlanılması, müqayisə edilməsi və əmlak barədə məlumatların reyestrə daxil edilməsi tələb olunduğundan, Tarif Şurasının 31 iyul 2009-cu il tarixli qərarına uyğun olaraq, 20 manat məbləğində xidmət haqqının ödənilməsi nəzərdə tutulur.



Xidmət haqlarının məbləği göstərilən xidmətin növünə görə dəyişir. Xidmət haqları əmlakın sahəsinə, ölçüsünə, torpaq sahəsinin kateqoriyasına və digər parametrlərə görə də fərqlənir. Bununla yanaşı, ərizəçilərin istəyindən asılı olaraq, qeydiyyat orqanı tərəfindən göstərilən xidmətlər qanunla müəyyən edilmiş icra müddəti tezləşdirilməklə də yerinə yetirilə bilər. Göstərilən xidmətlər qanunla müəyyən edilmiş icra müddətinin üçdəikisi qədər müddətdə yerinə yetirilərsə, müvafiq xidmətlərin tariflərinə Bakı, Gəncə, Sumqayıt şəhərlərində və Abşeron rayonunda 1,5, digər şəhər və rayonlarda 1,3 əmsalı; üçdəbiri qədər müddətdə yerinə yetirilərsə, müvafiq xidmətlərin tariflərinə Bakı, Gəncə, Sumqayıt şəhərlərində və Abşeron rayonunda 2,0; digər şəhər və rayonlarda isə 1,5 əmsalı tətbiq edilir.

Qeyd edək ki, Komitə tərəfindən istifadəyə verilən «Əmlak kalkulyatoru» sayəsində vətəndaşlar onlara məxsus daşınmaz əmlak üzərində hüquqların rəsmiləşdirilməsi prosesində dövlət rüsumu və xidmət haqqı barədə elektron qaydada əvvəlcədən məlumat ala bilərlər.

> Qanunvericilikdə nəzərdə tutulmuş dövlət rüsumu və xidmət haqları Hökumət Ödəniş Portalı, ödəniş terminalları və ya onlayn əlaqə vasitəsilə aparılır

**AYTƏN**

beynəlxalq panoram

# Dövlət xərclərini artırmaq, gəlir vergisini azaltmaq tövsiyə olunur

Beynəlxalq Valyuta Fondu (BVF) Almaniyaya infrastruktur layihələri, uşaqlara sosial xidmətlərin göstərilməsi və qaçqınların inteqrasiyası da daxil olmaqla bir sıra istiqamətlər üzrə dövlət xərclərini artırmağı, bununla belə gəlir vergisini azaltmağı tövsiyə etmişdir ki, son dərəcə aşağı dərəcələrin tətbiqi siyasətindən tədricən imtina etməyə şərait yaradacaq inflyasiyanı artırsın. BVF tərəfindən ictimaiyyətə açıqlanmış məruzədə qeyd edilmişdir ki, Avropa Mərkəzi Bankının faiz dərəcələrinin qaldırılmasına yalnız əhalinin gəlirləri artdığı halda nail olmaq mümkündür ki, bu da vergi dərəcələrindən və dövlətin dəstəyindən asılıdır. BVF ekspertlərinin fikrincə, Almaniyanın büdcə ilə bağlı mövqeyi yuxarıda göstərilənlərə şərait yaradır: 2014-cü ildən bəri büdcənin gəlirləri xərclərindən artıqdır. Bundan sonra da büdcənin profisiti saxlanılmalı və bu zaman BVF-nin proqnozu nəzərə alınmalıdır. Proqnoza əsasən, bu il Almaniyanın ümumi daxili məhsulunun artımı 1,4% olacaq. İqtisadi artımın daha böyük templə inkişafı da istisna edilmir, ilin ilk rübünün nəticələrinə əsasən, Almaniyada ÜDM artımı 2,4% olmuşdur.

# Cənubi Koreyada vergilər artırılacaq

Ölkənin yeni prezidenti Mun Çje İn bildirmişdir ki, korrupsiyaya qarşı mübarizəni sərtləşdirmək və yüksək vəzifə tutan şəxslərdən, eləcə də ölkənin ən varlı şirkətlərindən tutulan vergiləri artırmaq niyyətindədir. Seçkilərdən əvvəl iqtisadçı ekspertlər prezidentin Cənubi Koreya iqtisadiyyatının bərpası ilə bağlı təmayüllərə ziyan vuracaq hər hansı addım atılmayacağını proqnozlaşdırmış olsalar da, yeni dövlət başçısı artıq ölkə iqtisadiyyatında dominant mövqe tutan iri şirkətlərdən tutulan korporativ vergilərin dərəcəsinin 22%-dən 25%-ə qaldırılacağını, eləcə də korporativ idarəetmənin təkmilləşdiriləcəyini və hökumətin bu cür müəssisələrlə əlaqələrinin azaldılacağını bəyan etmişdir.

Gözlənilir ki, Cənubi Koreyanın yeni prezidenti yüksək məvacibli vəzifələrdə çalışan vətəndaşlardan tutulan gəlir vergisini artıracaq və büdcə bölgüsünün təfərrüatlarını açıqlayacaq.

# Qanunvericiliklə qarşı-qarşıya...

Avropa Məhkənməsi müşavirinin açıqlamasında qeyd edilmişdir ki, digər taksi xidmətləri kimi, «Uber» şirkəti də Avropa İttifaqı çərçivəsində fəaliyyətini həyata keçirərkən müvafiq lisenziya almalıdır.

Məhkəmə bu məzmunda qərar çıxaracağı təqdirdə, «Uber» xidmət göstərdiyi Avropa İttifaqına üzv olan hər bir dövlətin ərazisində lisenziya almalı olacaq. Xatırladaq ki, «Uber»ə qarşı ilk kollektiv iddianı Barselonda çalışan taksi sürücüləri irəli sürmüşdülər. Onların ərizəsində bildirilirdi ki, «UberPOP» xidməti vasitəsilə ədalətsiz rəqabət aparılır.

«Uber» şirkəti beş il bundan əvvəl fəaliyyətə başlamışdır və indiyədək bir neçə dəfə Avropa Məhkəməsində iddia ilə üzləşmişdir. Keçən il Berlində və Madriddə lisenziya almış şirkət hazırda Avropa İttifaqına üzv olan Estoniya, Polşa, Çexiya, Norveç, Filandiya və İsveçrə kimi ölkələrdə də fəaliyyət göstərir.




# «Qara siyahı» 3-cü dəfə təxirə salındı

Avropa Parlamentinin üzvləri Avropa Komissiyasının təqdim etdiyi «çirkli pulların yuyulması» sahəsində risk təşkil edən ölkələrin siyahısına baxılmasını növbəti - üçüncü dəfə təxirə salıb. Mayın 17-də parlamentin plenar iclasında deputatlar arasında səsvermə İqtisadi məsələlər komitəsi, eləcə də Vətəndaş azadlığı, məhkəmə qanunvericiliyi və daxili işlər komitəsi tərəfindən təqdim edilmiş qətnaməyə həsr olunmuşdu.

Avropa İttifaqının «çirkli pulların yuyulması» barədə direktivinə əsasən, Avropa Komissiyası «çirkli pulların yuyulması», vergi ödəməkdən yayınma və terrorizmin maliyyələşdirilməsi riskinə məruz qaldığı hesab edilən ölkələrin siyahısını tərtib etmək üçün cavabdehlik daşıyır. İlk siyahı maliyyə tədbirləri məqsədilə təşkil edilmiş xüsusi qrupun təqdim etdiyi sənəd əsasında tutulmuşdu. Siyahıya 11 ölkə, o cümlədən Əfqanıstan, İraq, Bosniya və Herseqovina, eləcə də Suriya daxil idi. İkinci siyahıya Həbəşistan da əlavə edilmişdi.

Parlamentin plenar iclasından sonra bəyan edilmişdir ki, Avropa İttifaqı qərar verərkən maliyyə tədbirləri məqsədilə təşkil edilmiş xüsusi qrup kimi kənar qurumun rəyinə əsaslanmamalıdır, ölkələrin maliyyə cinayətkarlığına məruz qalıb-qalmamasının qiymətləndirilməsi ilə bağlı müstəqil prosesə malik olmalıdır.

# Qənnadı məhsullarına vergi qoymaq təklif edilib



Böyük Britaniya ictimaiyyətini təmsil edən qurumların açıqlamasında bildirilmişdir ki, ölkənin gələcək hökuməti piylənmə və diabet xəstəlikləri ilə mübarizə çərçisəvində şəkər vergisini bütün qənnadı məmulatlarına aid etməlidir. Qanunvericilərdən tələb edilir ki, Böyük Britaniyanın Maliyyə Nazirliyi tərəfindən təsdiqlənmiş şəkər vergisi tərkibində şəkər olan alkoqolsuz içkilərə, eləcə də kafe və restoranlarda satılan məhsullar da daxil olmaqla bütün qənnadı məhsullarına şamil olunsun. «Alkoqolsuz içkilərdən vergi tutulması haqqında qanuna əsasən, yığım ölkənin Maliyyə Nazirliyi tərəfindən tənzimlənməlidir», - Londonun Kraliça Mariya Universitetinin ürək-damar təbabəti üzrə professoru Qrem Makqreqor demişdir.

Qənnadı məhsullarına şəkər vergisi tətbiq etmək təşəbbüsünün tərəfdarları qeyd etmişlər ki, alkoqolsuz içkilərdən tutulan vergiyə ciddi nəzarət edilməli və bu verginin dərəcəsi tədricən artırılmalıdır.

# Vergi administrasiyası maliyyə informasiyasına giriş əldə edib

İndoneziya dövlətinin rəhbərliyi yerli hakimiyyət orqanlarına banklara və digər maliyyə qurumlarına aid maliyyə məlumatlarını əldə etmək imkanı yaratmışdır. Hökumətin bu addımı vergidən yayınanların cəzalandırılması məqsədi daşıyır. Yeni qərara əsasən, İndoneziyanın vergi idarəsinin banklar, broker və sığorta şirkətləri də daxil olmaqla bütün maliyyə qurumlarında vergi təyinatlı informasiyaları qiymətləndirmək hüququ vardır.

Vergi idarəsinin birinci tələbinə əsasən, bu müəssisələr vergilərin qaytarılması üçün beynəlxalq hüquq normalarına uyğun gələn hesabatlar təqdim etməlidirlər. Sənədlərdə hesab sahibləri barədə məlumatlar, onların balans və gəlir göstəriciləri öz əksini tapmalıdır. Bundan əlavə, İndoneziya hökuməti həmin hesabatların təqdim olunmasının müddətlərini və şərtlərini də müəyyənləşdirmişdir. Bu müddətlərə və şərtlərə əməl etməyənlər üçün 75 min dollar ekvivalentinə qədər məbləğdə cərimə kəsilə bilər.

# «Airbnb» vergi tutmağa razılıq verib

Meksikanın paytaxtı Mexikoda mənzil bronlaşdırmaq üçün «Airbnb» xidmətindən istifadə edən insanlar bu il iyun ayının 1-dən əvvəlcədən mənzil tutmaq üçün 3%-lik vergi ödəməli olacaqlar. Bu vergi ölkədə onlayn broker xidməti göstərən şirkət üçün ilk təşəbbüsdür və artıq «Airbnb» ilə paytaxt hökuməti arasında razılaşdırılmışdır. Belə bir addımın atılması «Airbnb» şirkətindən qanunvericiliyə uyğun şəkildə vergi tutulmasını tənzimləyəcək. Bu sahədə mehmanxana biznesi ilə məşğul olanlar indiyədək müəyyən problemlərlə üzləşirdilər.

Xatırladaq ki, «Airbnb» ev və mənzil sahiblərinə öz mənzillərini qısa müddətə kirayə verməyə vasitəçi olan onlayn xidmətdir: potensial qonaqları veb sayt üzərindən ev sahibləri ilə əlaqələndirir. Həm ev sahibləri, həm də qonaqlar mənzillərin əvvəlcədən bron edilməsi üçün «Airbnb» şirkətinə komissiya haqqı ödəyirlər.

# ƏDV-nin dərəcəsini qaldırmaq gündəlikdədir

Rusiyanın Maliyyə Nazirliyi şirkətlər üçün korporativ verginin dərəcəsini aşağı salmaq sahəsində islahatı həyata keçirmək məqsədilə əlavə dəyər vergisinin artırılması təklifini irəli sürmüşdür. Təklif olunan plana əsasən, hazırda 18% təşkil edən əlavə dəyər vergisinin dərəcəsi tədricən artırılmaqla 2019-cu ildə 22%-ə çatdırılmalıdır.

Nazirliyin yaydığı məlumatda bildirilir ki, əlavə dəyər vergisindən əldə edilən vəsait şirkətlərin öz işçiləri üçün ödədikləri zəruri sosial sığorta ödənişlərinin həcmini azaltmağa imkan verəcək. Nəzərdə tutulan islahat dövlətin tutduğu birbaşa vergilərin artımına təsir göstərməyəcək.



krossvord

**Yuxarıdan aşağı:** 1.İslam dininə görə, əməl yerinə yetirildikdə heç bir günah yazılmayan, lakin bəyənilməyən əməl; 2.Avtobusdan əvvəl böyük şəhərlərdə ictimai nəqliyyatın aparıcı növü; 3.Yırtıcı balıq; 4.Elmi, ədəbi və s. mövzuya dair açıq mübahisə; 5.Türk dünyasının böyük şairlərindən biri, «Xəmsə» müəllifi; 6.Xoş ətirli üzüm növü; 9.Stolüstü oyun; 13.Yaratma, qurma, vücuda gətirmə; 15.Mərakeşin şimal-qərbində şəhər; 16.Braziliya ilə Argentinanın sərhədində yerləşən və UNESCO tərəfindən Ümumdünya irsi siyahısına daxil edilmiş təbiət abidəsi (şəlalə); 17.Apple tərəfindən yaradılmış və öz cihazlarında tətbiq olunan veb brauzerin adı; 18.Nəfəsli musiqi aləti; 20.Bir-birinə nisbətən oxboyu fırlanan vallar, çarxlar və ya başqa fırlanan hissələr arasında daimi və ya müvəqqəti ötürmə yaratmaq və bununla bir tərəfdən digər tərəfə qüvvə ötürmək üçün birləşmə qurğusu; 21.İdarənin, müəssisənin və s. adı olan möhür. **Soldan sağa:** 1.Ürək xəstəliyi; 5.ABŞ-ın Alyaska ştatında çay və şəhər; 7.Qədim Çin filosofu və mütəfəkkiri; 8.Slavyan xalqlarının ənənəvi içkisi, taxıldan və ya çörəkdən hazırlanır; 10.Mixəyi rəngdə piqment; 11.İdeal cəmiyyət yaratmaq haqqında qeyri-elmi fəlsəfi görüş, nəzəriyyə; 12.Bir şəklin, rəsmin və ya onun bir hissəsinin ilk qaralaması; 14.Cakomo Puççininin operası; 19.Almaniya yazıçısı və Nobel mükafatı laureatı Elias Kanettinin 1935-ci ildə yazdığı 3 hissədən ibarət roman; 21.Xüsusi biçimdə tikilmiş əsgər qış paltosu; 22.Yunan əlifbasının birinci hərfinin adı; 23.Başqırdların və tatarların el bayramı; 24.Xızı rayonunda kənd; 25.Dörd ildən bir keçirilən idman yarışları.



Braziliya ilə Argentinanın sərhədində yerləşən və UNESCO tərəfindən Ümumdünya irsi siyahısına daxil edilmiş təbiət abidəsi. Şəlalə

**Tərtib etdi: Rafael**

*Qəzetimizin ötən nömrəsində getmiş krossvordun cavabları:*

**Yuxarıdan aşağı:** 1.İndeks; 2.Məzənnə; 3.Noyan; 4.Treska; 5.Merac; 6.Domino; 9.Aksu *(Sezen)*; 13.İmic; 15.Enterit; 16.Manqal; 17.Mayami; 18.Avqust; 20.Tarix; 21.Amper. **Soldan sağa:** 1.İmmunitet; 5.Med; 7.Dizayner; 8.Brom; 10.Kənan *(Doğulu)*; 11.Kikican; 12.Məcid *(Şamxalov)*; 14.Kuper *(Ceyms Fenimor)*; 19.Aktrisa; 21.Aktiv; 22.Qara; 23.Paspartu; 24.Lex; 25.Prioritet.

Vergilər
SOSİAL-İQTİSADİ HƏFTƏLİK
12 fevral 2000-ci ildən çıxır

Təsisçi: Azərbaycan Respublikası Vergilər Nazirliyi

Baş redaktor: Anar Əliyev anar.eliyev@taxes.gov.az

Baş redaktor müavini: Məti Osmanoğlu redaksiya@vergiler.az

Qeydiyyat şəhadətnaməsi № R148
VÖEN: 1300327481
IBAN: AZ46ATAZ01200012258000138090
Atabank ASC. Kod: 507581
VÖEN: 9900006651

M/h: AZ50NABZ01350100000000032944
S.W.I.F.T. BIK ATAZAZ22

Ünvan: AZ 1141, Bakı ş., Əbdürrəhim bəy Haqverdiyev küç., 60

Telefon: 012 403 87 89, 012 403 87 95 (faks / abunə ilə bağlı)

«Vergilər» qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş və «Azərbaycan» nəşriyyatında çap olunmuşdur.

Tiraj: 15000

idman

BAKU 2017 4th Islamic Solidarity Games

# Azərbaycan İslamiada tarixinin görünməmiş nəticəsinə imza atdı

Azərbaycan paytaxtında keçirilən IV İslam Həmrəyliyi Oyunları başa çatdı. Öz möhtəşəmliyi və yüksək təşkilatçılığı ilə əvvəlki İslamiadalardan xeyli fərqlənən «Bakı-2017»də 268 dəst medal öz sahibini tapdı. 11 gün ərzində 269 qızıl, 267 gümüş, 350 bürünc, ümumilikdə 886 mükafat 40 ölkə təmsilçisi arasında bölüşdürüldü. Yarışa qatılan 14 ölkənin komandası isə Bakıdan əliboş qayıdır...

Medallardan 162-si Azərbaycan idmançılarının payına düşüb. Ümumi medal sayında Türkiyədən (195) geri qalmasına baxmayaraq, medalların əyarına görə yığmamız İslamiadanın qalibi olub. Bununla da ölkəmiz tarixində ilk dəfə multi-idman tədbirinin ən güclüsü adına yiyələnib. İndiyədək ən yaxşı nəticəmiz 2 il öncə Avropa Oyunlarında 2-ci pillədə qərarlaşmağımız idi.

Azərbaycan millisi həm də İslamiadaların ənənəsini davam etdirib. Belə ki, Səudiyyə Ərəbistanı 2005-ci, İndoneziya 2013-cü ildə təşkil etdiyi Oyunların qalibi olmuşdu. Lakin qızıl medal sayında həmin ölkələri də geridə qoyan Azərbaycan mütləq rekord müəyyənləşdirib. 75 çempionluq yaşayan millimiz İslamiada tarixinin görünməmiş nəticəsinə imza atıb. Türkiyə millisinin qazandığı 195 medal da tarixə rekord kimi düşüb. Ümumilikdə isə yığmamız 75 qızılla yanaşı, 50 gümüş və 37 bürünc medal sevinci də yaşayıb. İkinci olan Türkiyə bizdən 4 qızıl az alıb. İlk «üçlüy»ü 98 mükafatla İran qapayıb.

**İslamiadada medal qazanan ölkələr:**

| | Ölkə | Qızıl | Gümüş | Bürünc | Cəmi |
|---|---|---|---|---|---|
| 1 | Azərbaycan | 75 | 50 | 37 | 162 |
| 2 | Türkiyə | 71 | 67 | 57 | 195 |
| 3 | İran | 39 | 26 | 33 | 98 |
| 4 | Özbəkistan | 15 | 17 | 31 | 63 |
| 5 | Bəhreyn | 12 | 5 | 4 | 21 |
| 6 | Əlcəzair | 7 | 12 | 21 | 40 |
| 7 | Mərakeş | 7 | 5 | 15 | 27 |
| 8 | İndoneziya | 6 | 29 | 23 | 58 |
| 9 | Misir | 6 | 5 | 7 | 18 |
| 10 | Qırğızıstan | 4 | 5 | 8 | 17 |
| 11 | Səudiyyə Ərəbistanı | 4 | 1 | 6 | 11 |
| 12 | İordaniya | 3 | 1 | 11 | 15 |
| 13 | İraq | 2 | 7 | 5 | 14 |
| 14 | Qazaxıstan | 2 | 5 | 12 | 19 |
| 15 | Türkmənistan | 2 | 4 | 7 | 13 |
| 16 | Qətər | 2 | 3 | 7 | 12 |
| 17 | Nigeriya | 2 | 3 | 1 | 6 |
| 18 | Suriya Ərəb Respublikası | 2 | 2 | 6 | 10 |
| 19 | Tunis | 1 | 3 | 8 | 12 |
| 20 | Kamerun | 1 | 2 | 6 | 9 |
| 21-22 | Banqladeş | 1 | 1 | 1 | 3 |
| | Seneqal | 1 | 1 | 1 | 3 |
| 23 | Qambiya | 1 | 1 | 0 | 2 |
| 24-26 | Benin | 1 | 0 | 1 | 2 |
| | Qvineya-Bisau | 1 | 0 | 1 | 2 |
| | Mozambik | 1 | 0 | 1 | 2 |
| 27 | Pakistan | 0 | 3 | 9 | 12 |
| 28 | Oman | 0 | 3 | 4 | 7 |
| 29 | Birləşmiş Ərəb Əmirliyi | 0 | 1 | 3 | 4 |
| 30-31 | Qayana | 0 | 1 | 2 | 3 |
| | Surinam | 0 | 1 | 2 | 3 |
| 32 | Cibuti | 0 | 1 | 1 | 2 |
| 33-34 | Mali | 0 | 1 | 0 | 1 |
| | Uqanda | 0 | 1 | 0 | 1 |
| 35 | Əfqanıstan | 0 | 0 | 6 | 6 |
| 36-37 | Fil Dişi Sahili | 0 | 0 | 4 | 4 |
| | Tacikistan | 0 | 0 | 4 | 4 |
| 38-39 | Malayziya | 0 | 0 | 2 | 2 |
| | Yəmən | 0 | 0 | 2 | 2 |
| 40 | Livan | 0 | 0 | 1 | 1 |
| Cəmi | | 269 | 267 | 350 | 886 |

Yığmamızın birinci olmasında döyüş növlərinin rolu böyükdür. Komandamızın hesabına ən çox qızıl medalı güləşçilərimiz qazandırıb. Cüdoçularımız (paracüdo) isə ümumi medalların sayına görə liderdir. Həmçinin taekvonda, boks, karate növləri də birinci olmağımıza töhfəsini verib. İslamiadada komanda idman növlərində də yetərincə medal qazandıq. Basketbolçular, voleybolçular və futbolçular Oyunları mükafatla başa vurublar. Həndbol yığmamız isə 2 medaldan birinə sevinə bilib. İdmançılarımız yalnız su polosu və tennisdə medal qazana bilməyiblər.

**Azərbaycan millisinin qazandığı medallar:**

| Növ | Qızıl | Gümüş | Bürünc | Cəmi |
|---|---|---|---|---|
| Güləş | 12 | 6 | 5 | 23 |
| Cüdo/paracüdo | 11 | 12 | 3 | 26 |
| Atletika/paratletika | 10 | 4 | 4 | 18 |
| Atıcılıq | 6 | 3 | 1 | 10 |
| Taekvondo | 6 | 2 | 1 | 9 |
| İdman gimnastikası | 5 | 5 | 2 | 11 |
| Karate | 5 | 2 | 3 | 10 |
| Bədii gimnastika | 4 | 2 | 2 | 9 |
| Üzgüçülük | 4 | 0 | 2 | 6 |
| Boks | 3 | 3 | 1 | 7 |
| Suyatullanma | 2 | 2 | 2 | 6 |
| Basketbol | 2 | 0 | 0 | 2 |
| Zorxana | 1 | 3 | 3 | 7 |
| Voleybol | 1 | 1 | 0 | 2 |
| Ağır atletika | 1 | 0 | 3 | 4 |
| Futbol | 1 | 0 | 0 | 1 |
| Həndbol | 1 | 0 | 0 | 1 |
| Uşu | 0 | 3 | 3 | 6 |
| Stolüstü tennis | 0 | 2 | 2 | 4 |
| Su polosu | 0 | 0 | 0 | 0 |
| Tennis | 0 | 0 | 0 | 0 |

Qeyd edək ki, növbəti – V İslam Həmrəyliyi Oyunları 2021-ci ildə qardaş Türkiyə Respublukasının paytaxtı İstanbul şəhərində keçiriləcək. «Bakı-2017»nin nəticələrinə nəzər salsaq, inamla demək olar ki, qarşıdakı İslamiada yarışlarında da Azərbaycan əsas favoritlərdən olacaq.












UCI

# «Tour d'Azerbaidjan-2017»dəki təşkilatçılıq işləri yüksək qiymətləndirilib

Mayın 3-7-də keçirilmiş 2.1 kateqoriyalı «Tour d'Azerbaidjan-2017» veloturunun təşkilatçılığı Beynəlxalq Velosipedçilər İttifaqı (UCI) tərəfindən yüksək qiymətləndirilib. Bununla bağlı Azərbaycan Velosiped İdmanı Federasiyasına UCI-dən məktub daxil olub.

Məktubda qeyd olunur ki, beynəlxalq federasiyanın şose velosipedi üzrə yarışlarının komissarları «Tour d'Azerbaidjan-2017»yə olduqca yüksək qiymət veriblər. Bütün mərhələlər zamanı təhlükəsizlik tədbirlərinin yüksək səviyyədə təmin olunması da məktubda xüsusi qeyd olunub.

Xatırladaq ki, 5 mərhələdən ibarət «Tour d'Azerbaidjan-2017» veloturunda planetin 18 ölkəsindən - 6-sı pro-Kontinental, 16-sı kontinental olmaqla - ümumilikdə 22 komanda iştirak edib. Ümumi təsnifatda yarışın ən yaxşı velosipedçisi adına Azərbaycanın elit yığması və «Synergy Baku» kontinental klubunun üzvü Kiril Pozdnyakov layiq görülüb. Bundan başqa, o, «Tour d'Azerbaidjan-2017»nin ən yaxşı dağ velosipedçisi köynəyinə də yiyələnib.



# Gimnastlarımız qitə çempionatında iştirak ediblər

Macarıstanın paytaxtı Budapeştdə bədii gimnastika üzrə Avropa çempionatı keçirilib. Sayca 33-cü qitə çempionatında Azərbaycanı fərdi proqramda Marina Durunda, Jalə Piriyeva və gənclərdən ibarət qrup hərəkətləri komandası təmsil ediblər.

Bu barədə məlumat verən Azərbaycan Gimnastika Federasiyasından bildiriblər ki, bir müddət əvvəl zədə alaraq məşqlərinə fasilə verən komandamızın lideri Marina Durunda yenidən yarış meydançasında öz gücünü sınayıb. İslam Həmrəyliyi Oyunlarından sonra iştirak etdiyi ikinci böyük turnirdə o, ən yaxşı nəticəni halqa ilə göstərərək finala yüksəlib. Yekun mərhələdə Marina Durunda 16,750 xalla 6-cı yerdə qərarlaşıb.

Güllü Ağalarzadə, Fatimə Əkbərova, Narın Qurbanova, Dərya Sorokina, Nərmin Cahangirovadan ibarət qrup komandamız isə 27 ölkə arasında gedən mübarizədə 9-cu yerlə (30.150 xal) kifayətlənməli olub.

# Gənc güləşçilərimiz «Çempionlar» turnirində...

Antalyada gənclər arasında 20-ci «Çempionlar» beynəlxalq turniri keçirilib. Yarışlarda sərbəst və qadın güləşi üzrə yığma komandamızın gənc üzvləri iştirak ediblər. Azərbaycan Güləş Federasiyasından verilən xəbərə görə, pəhləvanlarımız yarışdan 1 qızıl və 5 bürünc medalla qayıdıblar.

Məşqçi Rövşən Hacıyevin rəhbərliyi altında mübarizə aparan sərbəst güləşçilərimiz turniri 1 qızıl və 3 bürünc medalla tamamlayıblar. 66 kiloqram çəki dərəcəsində mübarizə aparan Pənah İlyaslı bütün rəqiblərindən üstün olaraq qızıl medala sahib olub. Şahin Muxtarov (50 kq), Abubakr Abakarov (74 kq) və Asxab Həmzətov (96 kq) isə bürünc medal qazanıblar.

Məşqçi İsaməddin Hüseynovun rəhbərliyi altında turnirə qatılan gənc qızlarımız isə yarışı 2 bürünc medalla başa vurublar. Türkan Nəsirova (48 kq) və Tatyana Varantsova (51 kq) fəxri kürsünün üçüncü pilləsində qərarlaşıblar.

On iki ölkədən 400-ə yaxın idmançının mübarizə apardığı turnirdə görüşlərin idarə edilməsində ölkəmizi beynəlxalq dərəcəli hakim Elman İsmayılov təmsil edib.